

**Lana Ravandi-Fadai: "Tehran bu nəqliyyat dəhlizində Bakıdan daha çox maraqlıdır"**

4

# Ədəbiyyatımızın "Xan qızı"

*Dövlət başçısının Sərəncamına əsasən, milli poeziyamızın görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın 190 illiyi qeyd olunacaq*

2




SƏS

№ 049 (6490) **17 mart** 2022-ci il. **Qiyməti 60 qəpik**


# Müharibə Rusiyaya baha başa gəlir

6




## Zəngəzur dəhlizi

### Naxçıvanın blokadasını yarır və ya zəfər + zəfər!

8



*Ötən həftə Azərbaycanla İran İslam Respublikası arasında imzalanan və Naxçıvan Muxtar Respublikasının blokadasının yarılmasına xidmət edəcək Memorandum Naxçıvanın dünəni, bu gününü və ümumiyyətlə son 30 ilini gözlər önünə gətirdi.*

## Başlanır? - Rusiyada süd qabları tükənir...



7

Rusiya süd məhsulları istehsalçıları idxal materiallarından hazırlanan qablaşdırma ilə bağlı problemlər səbəbindən tədarükdə mümkün fasilələr barədə xəbərdarlıq ediblər.

12

## Azərbaycan musiqisini zənginləşdirən böyük bəstəkar



Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdəndir. Belə ki, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı və gənc istedadların dəstəklənməsi, milli sənətin inkişafı...



## "Təhsil Tələbə Krediti Fondu"nun əhatə dairəsi genişlənməlidir

"Aztəminatlı təbəqədən olan ailələrin üzvlərinin təhsilə əlçatanlığının təmin edilməsi məqsədi ilə dövlət tərəfindən...

13

## Düşmənlə məxfi əməkdaşlıq edən şəxs ifşa edilib

5



Azərbaycanın milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkar edilməsi və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən kompleks əks-kəşfiyyat tədbirləri davam etdirilir. SİA xəbər verir ki, bu barədə DTX-nin saytı məlumat yayıb.



## "Monax" ləqəbli erməni terrorçu "yeni müharibə" mümkünlüyündən danışdı

14

*Artur Ayvazyan: "Azərbaycan tərəfi istədiyi qədər irəliləyəcək, üstəlik, təhlükəsizlik ərazisi yaradacaq və bu yolla indiki Ermənistan ərazilərinin içlərinə qədər daxil olacaq"*



## Ronaldo və Messi Çempionlar Liqasından kənarda qaldılar...

16

Kriştiano Ronaldo və Lionel Messi futbol kroyeralarında növbəti anti rekorda imza atıblar. Belə ki, dünyanın hər iki ulduz futbolçusu...

# Ədəbiyyatımızın “Xan qızı”

## *Dövlət başçısının Sərəncamına əsasən, milli poeziyamızın görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın 190 illiyi qeyd olunacaq*





***Azərbaycan ədəbiyyatı çoxəsrlik yol keçərək zamanla cəmiyyət arasında olan reallıqları özündə cəmləşdirmiş, insanlıq, humanizm prinsiplərini real lövhələrlə təcəssüm etdirmişdir. Bu ədəbiyyatı yaradan, yaşadan və zaman, insanlıq meyarlarını, cəmiyyətdəki prossləri diqqətə çəkən nümayəndələri - görkəmli yazıçı və şairlərimiz olmuş, bədii nümunələri ilə Azərbaycan sərvətini, irsini bədiiləşdirərək dünya klassikasında yerini qazandıra bilmişlər.***

imlərin həyat səhifəsi vərəqlənmir bu yaşanılan tarixdə. Nizamilər, füzulilər, qətran təbrizilər, nəsimilər, xaqanilər yetişdirən bu torpağın hər bir qələm sahibi vətənin gələcəyi, onun insanlarının firavan həyatı naminə söz səltənətində imzaların atmışlar. Azərbaycan ədəbi mühiti bir sıra qüdrətli sənətkarlar, o cümlədən, şairə qadınlar yetişdirmişdir, onların sırasında Məhsəti Gəncəvi, Fatma xanım Kəminə, Aşıq Pəri və başqalarının adı və yeri var.

Belə nurlu insanlara qarşı hər zaman xalq məhəbbəti olmuş və əsərləri əldən-ələ keçərək diqqətlə mütaliə edilib, tədqiq belə olunmuşdur. Müasir dövrümüzdə Azərbaycan ədəbiyyatı tarixinin yaradıcıları olan simalara diqqət xüsusilə artmışdır.

Bildiyimiz kimi, bu il Azərbaycan bədii fikrinin görkəmli siması Xurşidbanu Natəvanın anadan olmasının 190 ili tamam olur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev milli poeziyamızın görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyinin keçirilməsi ilə əlaqədar Sərəncam imzalayıb. Parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyat tarixində özünəməxsus layiqli yer tutan Xurşidbanu Natəvan klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınır.

Onunla bağlı olan tərcümeyihalında qeyd olunur ki, Azərbaycanın görkəmli şairi Xurşudbanu Natəvan 1832-ci il avqustun 15-də Şuşada anadan olmuşdur. Mehdiqulu xan qızına öz anası Xurşudbanunun adını vermişdir. Xurşudbanu ailənin yeganə övladı, həm də Qarabağ xanlıqlarının sonuncu vərəsəsi olduğu üçün, onu sarayda ”Dürrü yekta” (Tək inci), el arasında isə ”Xan qızı” çağırırmışlar.

Balaca Xurşudbanunun ilk tərbiyəçiləri sarayın təcrübəli dayə və mürəbbiyələri olmuşdular. Məktəb yaşına çatdıqda isə evdə dövrün alim və sənətkarlarından dərs almağa başlamışdır. Məşğələ zamanı Xurşudbanu ”Quran” ayələrini və dini ehkamları əzbərləməklə yanaşı, dünyəvi elmlərlə də tanış olmuşdur. XIX əsrdə kübar ailələrin uşaqlarına bir qayda olaraq doğma dili ilə bərabər, ərəb və fars dili, onun sərfi-nəvi təlim edildiyindən, Xan qızı da bu dilləri öyrənmiş, onların vasitəsilə klassik şeirin qayda-qanunlarını mənimsəmişdir. Dahi şərq şairlərin ələ düşən nadir kitabları, qiymətli əlyazmaları Xurşudbanunu klassik ədəbiyyata bağlamışdır. Natəvanın dünyagörüşünün, bədii zövqünün formalaşmasında yaxın və uzaq qohumlarının əməyi az olmamışdır. Qasım bəy Zakir, Mirzə Cavan, Mirzə Adıgözəl, Əhməd bəy Cavanşir kimi hörmətli və tanınmış şəxsiyyətlər yaradıcılıqları, ədəbi söhbət və mübahisələri, eləcə də ağıllı məsləhətləri ilə Xurşudbanuda şeirə və sənətə olan şövq və həvəsi qüvvətləndirmişlər.

### İKİ BÖYÜK NƏSLİN DAVAMÇISI

Tarixçilərin ehtimalına görə, bu dövrdə xarici və daxili vəziyyətin ciddi surətdə gərginləşməsi ilə əlaqədar xan ailələri üzərində nəzarət gücləndirilmiş və Xurşudbanu Xasay bəy Usmubəylə izdivaca məcbur edilmişdi. Belə bir ehtimal da vardır ki, Vorontsovun şəxsi yavəri Xasay bəy Tiflisdə onlara mülk iddialarında kömək göstərmiş və bunun müqabilində Xurşudbanuya evlənməyi təklif etmişdir. 1850-ci ilin payızında Xasay bəy Şuşaya gəlib toy etmiş və Xurşudbanunu Dağıstana öz doğma kəndinə, oradan da Tiflisə aparmışdır.

Xurşidbanu Natəvan parlaq istedada və qabaqcıl ideallara malik olan şəxsiyyət olmuşdur. O, Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuşdur. Bu fenomenin meydana gəlməsinin bir neçə əsas səbəbi vardır. Bunlardan birisi şairənin soy kökündür. Yəni, Natəvanda iki böyük nəslin - Cavanşirlərin və Ziyadoğlu Qacarların qanı vardır. Adlarını çəkdiyimiz bu iki böyük və şərəfli nəslin hər birisi dünyaya bir sıra şair gətirmişdir. Onlardan Cavanşir nəslindən Əbülfət-xan Tutinin, Qasım bəy Zakirin, Ziyad-oğlu Qacar nəslindən isə Ziyadi Qarabaği, Müsahib Gəncəvi və bir sıra başqa şairlərin adlarını çəkmək olar. Maraqlıdır, ki, Ziyadi Qarabaği və Musahib Gəncəvi vaxtilə Qarabağ bəylərbəyisi olmuşdurlar. Natəvan yaradıcılığının böyük tədqiqatçısı Bəylər Məmmədov ”Natəvanın şair qohumları” kitabında bu məsələni geniş açıqlayır. Eyni zamanda, Ziyadoğlu Qacar nəslindən çıxan şairlərdən başqa kitablarda da söz açılır. Füzuli adına Respublika əlyazmalar institutunun fondunda Müsahib Gəncəvinin şeir divanı saxlanılır və bu əsərin üzərində institutun əməkdaşları elmi tədqiqatlar aparırlar. Natəvanın qızı Xanbikə xanım da anasının yolunu davam etdirərək, qəzəllər və rübailər yazmışdır. Xanbikə xanım ”Məclisi-üns”ün üzvlərindən biri olub.

### ŞUŞANIN TƏKRAREDİLMƏZ YARADICI AB-HAVASI

Natəvanın fitri istedadının üzə çıxması və çiçəklənməsinin başqa bir səbəbi, şübhəsiz, Şuşanın təkraredilməz yaradıcı ab-havası və mühiti də olmuşdur. Bəylər Məmmədov ”Xurşidbanu Natəvan” kitabında yazır: ”Hətta xatirələrdə Natəvanın ”Xanlıq Şükür” adı ilə tanınan xidmətçisinə musiqi təlimi verməklə onu məşhur xanəndə etməsindən də danışılır”. Özü də müəllif qeyd edir ki, bu haqda material Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin fondunda saxlanılır. Natəvanın poeziyası Azərbaycan xanəndələrini də ruhlandırır. Böyük sənətkarımız Seyid Şuşinskinin Natəvan haqqında xatirəsində qeyd olunur ki, o şairənin qəzəllərini ”Segah” üstündə oxuyarmış. Və dövrdən bəri, demək olar ki, bu günə kimi tanınmış Azərbaycan xanəndələri şairənin qəzəllərini oxuyub, ilham alırlar.

### XEYİRXAHLIĞI VƏ MESENATLIĞI İLƏ SEVİLƏN ŞAİRƏ

Xurşidbanu Natəvan zəmanəsinin görkəmli şəxsiyyətlərindən olmuş, təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada xeyirxahlığı və mesenatlığı ilə tanınmışdır. O, kasıblara əl tutmuş, Şuşaya su kəməri çəkdirmişdir. Mənbələrdə göstərilir ki, Şuşanın bir qrup şairləri bədii məclisi təşkil edilməsinin zəruriyyətini dərk edirdilər. Lakin, məclis düzəltmək üçün şərait və imkan yox idi. Ziyalılar yalnız Xan qızının köməyinə ümid edirdilər. Xan qızı bu şairlərin təklifini məmnuniyyətlə qəbul etmiş və nəticədə qısa bir müddətdə Şuşada ”Məclisi-üns” - yəni, dostluq, ülfət məclisi yarandı. Bu məclisə rəhbərliyi və onun bütün xərclərini Xan qızı öz üzərinə götürmüşdür. Şuşada Mir Möhsün Nəvvab Qarabağinin rəhbərliyi ilə ”Məclisi-fəramuşan” adlı daha bir poetik məclis də fəaliyyət göstərirdi.

”Məclisi-üns”də tanınmış Qarabağ şairləri ilə yanaşı, məşhur xanəndə və sazandələr də iştirak etmişlər. Bunlardan Hacı Hüsü, Məşədi İsi, Molla Vəli, Molla Abbasqulu, Meşədi Dadaş, Əbdülqəni və Sadıqcanın adlarını çəkə bilərik. Məşhur tarzən Qurban Pirimov yazırdı: ”Xurşidbanu nəinki şeir, eləcə də musiqini çox sevirdi. Xanəndələrdən Hacı Hüsü və Meşədi İsi onun məclisində oxuyardılar. Bu xanəndə oxuyarkən Natəvanın qəzəllərindən tez-tez istifadə edərdilər. Son vaxtlara qədər Cabbar onun qəzəllərini öz repertuarında saxlardı”. Füzuli adına Respublika Əlyazmalar İnstiututun fondunda saxlanılan Mir-Həsən Ağamirovun ”Natəvan haqqında xatirələrdə” qeyd olunur ki, Natəvanın hər bir məclisində musiqiçilər iştirak edirdilər, Natəvanın bəzi məclisləri isə sırf musiqi məclisi hesab olunurdu və burada Natəvanın qəzəlləri də oxunurdu. Gənc şairə Şuşada ”Məclisi üns” ədəbi məclisini təşkil etmişdir.

### MÖHTƏŞƏM ZƏFƏRİMİZİN TƏNTƏNƏSİ

Xurşidbanu Natəvanın yaradıcılığı həmişə diqqət mərkəzində saxlanılmışdır. Rəsmi Sənəddə də qeyd olunduğu kimi, xatirəsinin əbədiləşdirilməsi istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılmışdır. Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərək buradakı tarixi-memarlıq və mədəniyyət abidələrini vandalcasına dağıdarkən güllə ilə zədələdikləri həmin büst 44 günlük Vətən müharibəsində şəhər şanlı Azərbaycan Ordusu tərəfindən azad olunduqdan sonra əzəli məkanına qaytarılmışdır. Bu gün Natəvanın Şuşada yenidən ucalan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü, eyni zamanda, xalqımızın milli mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Antalya Diplomatik Forumunun dünya və region üçün əhəmiyyəti




***Ölkə başçısının, cənab Prezident İlham Əliyevin rəhbərliyə ilə həyata keçirilən balanslı xarici siyasət davamlı olaraq öz bəhrəsini verməkdədir və Türkiyədə keçirilən Antaliya Diplomatik Forumunda da biz bunun bir daha şahidi olduq. Azərbaycanın region, eləcə də dünya dövlətləri ilə bərabərhüquqlu, həmçinin qarşılıqlı maraqlara söykənən münasibətlər qurması ölkəmizin nüfuzunu daha da artırır və dünya ictimaiyyəti də bunun əyani şahididir.***

Dünya ictimaiyyəti, beynəlxalq ictimaiyyət artıq qəbul edir ki, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan bölgədə sülhyaratma və təhlükəsizliyin təmin olunması istiqamətində atdığı addımlarda, irəli sürdüyü təşəbbüslərdə nailiyyətlərə imza atır və bunun da təkcə bölgənin deyil, ümumilikdə dünyanın təhlükəsizliyinə təsiri danılmazdır. Bu günlərdə Türkiyə Prezidentinin himayədarlığı ilə Xarici İşlər Nazirliyi tərəfindən "Diplomatiyanın yenidən qurulması" mövzusunda keçirilən Antalya Diplomatiya Forumu məhz deyilənləri şəksiz olaraq təsdiq edir.

Məhz Antalya Diplomatiya Forumu bir daha təsdiq etdi ki, əksər regional və ya beynəlxalq layihələr Azərbaycanın iştirakı olmadan reallaşmır. Onu da nəzərə çatdıraq ki, Türkiyə ilə Azərbaycanın birlikdə atdığı addımların dünyanın diqqət mərkəzində olduğu günün reallığıdır. Rusiya ilə Ukrayna arasındakı toqquşmanın, müharibənin dayandırılması, sülh danışıqlarının keçirilməsi, yaranmış böhranın aradan qaldırılması istiqamətində həm Türkiyənin, həm də Azərbaycanın vasitəçi qismində çıxış etməsi, göstərdikləri təşəbbüslərin yüksək qiymətləndirilməsi də əbəs yerə, yaxud səbəbsiz deyil. Bu münasibət həm də ondan qaynaqlanır ki, əvvəla Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan etibarlı tərəfdaşdır, digər tərəfdən də dünyanın müxtəlif yerlərində dövlətlərin bir-birinə qarşı düşmənçiliyi, etnik təmizləmələr, terror aktları, dini, milli, irqi ayrı-seçkilik müşahidə edildiyi halda, Azərbaycanda insanlar təhlükəsizlik, tolerantlıq şəraitində yaşayırlar və bu, bütün dünya üçün bir nümunədir. Bir sıra vacib görüş və tədbirlərin keçirilməsi məqsədi ilə bir neçə dəfə məhz Azərbaycanın seçilməsi də bu baxımdan başadüşüləndir. Başadüşülən həm də odur ki, bu nailiyyət, bu uğur ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin məntiqi nəticəsidir.

Dünyada müşahidə etdiyimiz proseslər, sözsüz ki, beynəlxalq hüququn norma və prinsiplərinin bərqərar olunmasını, eləcə də hərbi münaqişələrin qarşısının alınmasını, onların yaratdığı fəsadların aradan qaldırılmasını və bu istiqamətdə yeni görüş və münasibətlərin formalaşmasını tələb edir. Antaliya Diplomatiya Forumu bu baxımdan, yəni qeyd olunan məsələlərin həlli baxımından yüksək qiymətləndirilir. Bütün dünya ictimaiyyətinin əvvəlcədən də bu Forumdan gözləntilərinə zərrə qədər şübhə yox idi və gedişat da bunu təsdiq etdi. Məhz Rusiya-Ukrayna konfliktinin dayandırılması, sülh danışıqları, böhranın aradan qaldırılması istiqamətində iki qardaş ölkənin, Türkiyə və Azərbaycanın səyləri, vasitəçi qismində çıxış etməsi həqiqətən də təqdirəlayiqdir. Onu da vurğulamaq yerinə düşərdi ki, konfliktlərin aradan qaldırılması və sülh danışıqları prosesində vasitəçi qismində Azərbaycanın Türkiyənin yanında olması, ölkəmizin qardaş ölkə ilə yanaşı olması ilə bərabər, həm də Azərbaycanın nüfuzunun göstəricisidir. Əlbəttə, bu da ondan xəbər verir ki, dünyanın yenicə formalaşan siyasi nizamında, eləcə də müasir beynəlxalq münasibətlər sistemində Azərbaycanın öz yeri və mövqeyi var. Sadalananlar həm də ondan xəbər verir ki, ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin şəxsi nüfuzu, bacarıqlı diplomat, müdrik lider olması Azərbaycanı davamlı olaraq yeni uğurlara, nailiyyətlərə doğru aparır.

Forumun əhəmiyyəti barədə qeyd edərkən, ilk növbədə dünya düzənində baş verən hadisələrin, əsasən münaqişələrin həllinin vacibliyi düşünülməlidir. Bildiyimiz kimi, Ukrayna ilə Rusiya arasında münasibətlər, daha doğrusu mövcud toqquşma, davam edən müharibə təkcə bu iki ölkəni narahat etmir, bütün dünyada narahatlıqlar doğurur. Dünya ictimaiyyəti, dünyanın tanınmış siyasətçiləri, ölkə rəhbərləri bu münaqişə barədə narahatlıqlarını dəfələrlə ifadə ediblər və bu heç də təsadüfi deyil. Ona görə təsadüfi sayılmır ki, müharibənin, münaqişənin təsirləri digər ölkələrə də, ümumilikdə dünyaya da təsirsiz ötüşmür. Hazırda Ukrayna torpaqlarında dağıntılara, insan tələfatına səbəb olan münaqişə və müharibə artıq böyük zərərlərlə də ölçülür. Doğrudur, ukraynalı hərbçilərlə yanaşı, rusiyalı hərbçilər də itgilər verməkdə davam edirlər və mülki əhali arasında da tələfat var. Digər tərəfdən Rusiya dözülməz sanksiyalarla üzləşib və bu ölkə ciddi sınaqlar qarşısındadır. İndi Rusiya kimi bir ölkənin iqtisadiyyatı ciddi təsirlərə məruz qalıb və bunun mənfi nəticələrini təkzib etmək mümkün də deyil. Bütün bunlarla yanaşı dünya ictimaiyyəti üçüncü dünya müharibəsinin başlaması qorxusu ilə yaşayır. Çünki, bu artıq daha böyük toqquşma və tələfatlar vəd edir. Təbii ki, NATO-nun Ukrayna münaqişəsinə cəlb olunmasının üçüncü dünya müharibəsinin başlamasına gətirib çıxara biləcəyini hər kəs yaxşı bilir və bu barədə Avropa İttifaqı Şurasının sədri Şarl Mişel də "El Pais" qəzetinə müsahibəsində qeyd edib. Daha doğrusu etiraf edib. Yəni, etiraf etmək lazımdır ki, bu məsələ artıq xüsusi narahatlıq doğurur. Məhz bu baxımdan, yəni sözügedən məsələnin müzakirə olunduğunu nəzərə alsaq, Antaliya Diplomatik Forumunun bütövlükdə dünya üçün əhəmiyyətini danmaq olmaz.

Xatırladaq ki, Türkiyədə keçirilən bu forumda 2000-dən çox qonaq, o cümlədən dövlət və hökumət başçıları, xarici işlər nazirləri, beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak ediblər. Onu da diqqətə çatdıraq ki, məhz belə bir qlobal Forum bəşəriyyəti böyük sınaq qarşısında qoyan pandemiyanın yumşalmasından sonra ən geniş beynəlxalq tədbir olaraq xarici siyasət və diplomatiyada mühüm hadisə sayılır. Bununla yanaşı, Türkiyə, Rusiya və Ukrayna xarici işlər nazirlərinin toplantısının Antalyada təşkil olunması şübhəsiz ki, bütün dünya tərəfindən diplomatik zəfər hesab olunur. "Dünya 5-dən böyükdür" ifadəsini cəsarətlə söyləyən Türkiyə Prezidentinin haqlı olduğunu artıq bütün dünya görmüş və qəbul etmiş oldu. Daha doğrusu, cənab Ərdoğanın haqlı olduğunu indi bütün dünya etiraf etmək məcburiyyətində qaldı. Öz çıxışı zamanı ərzaq çatışmazlığı, qaçqın problemi və digər önəmli mövzulara toxunan, bu mövzuları daha geniş şəkildə və konseptual formada irəli sürən Türkiyə Prezidentinin dünyanın təhlükəsizlik aspektlərinə həssaslıqla yanaşdığı göz qabağında idi və bu da bütün dünyanın diqqətindən yayına bilməzdi. Yəni, məhz bütün dünyanı düşündürən, narahat edən məsələlərin bu Forumda müzakirə mövzusuna çevrildiyi göz özündə idi. Əlbəttə ki, Türkiyə liderinin dövlətlərin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığına hörmət edilməsi haqqında mövqeyi beynəlxalq hüququn fundamental norma və prinsiplərinə söykənir və bunu kimsə təkzib edə bilməz. Bu Forumun dünya üçün əhəmiyyəti də bu baxımdan əvəzsizdir.

Türkiyədə keçirilən Antalya Forumunda Azərbaycanın iştirak etməsi də sözsüz ki, ölkəmizin geosiyasi mövqeyinin bir daha təsdiq edilməsi deməkdir. Ölkəmizlə bağlı həqiqətlərin dünyaya çatdırılması isə, əlbəttə ki, daha böyük önəm kəsb etdi. Bu baxımdan Forumun ölkəmiz üçün mühüm hadisə olduğunu cəsarətlə söyləyə bilərik. Ən çox diqqəti cəlb edən məqam isə, Azərbaycan və Ermənistan arasında gedən proseslərin fonunda bu Forumda ölkəmizin mövqeyinin önə çıxmasıdır. Bu bizim üçün böyük əhəmiyyət kəsb edir və hadisələrin gedişatına ciddi şəkildə təsir gücünə malikdir. Nəzərə alsaq ki, regionda sülhün, təhlükəsizliyin təmin olunmasına Azərbaycanın töhvələri saysız-hesabsızdır, deməli, bu Forum həmçinin bölgəyə də müsbət təsirləri ilə yadda qalacaq. Bir növ Azərbaycanın haqlı mövqeyinin bütün dünyaya çatdırılması, müzakirə və müdafiə edilməsi elə regionun maraqlarına taç şəkildə uyğundur. Çünki, regionda sülhün bərqərar olunması, təhlükəsizliyin təmin edilməsi uğrunda Azərbaycanın zəfərlə başa çatan mübarizəsinin, mövqeyinin müdafiəsi regionun maraqlarının qorunması deməkdir. Bu baxımdan cəsarətlə deyə bilərik ki, Antalya Diplomatik Forumunun dünya və region üçün əhəmiyyəti olduqca böyükdür və danılmazdır.

***İ.Hacıyev***

## "Azərbaycan və Türkiyə sinxron hərəkət edir"



***"Mən inanmıram ki, Azərbaycanın razılığı olmadan Türkiyə tərəfi Ermənistanla sərhədləri açsın". Bu sözləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli bildirib.***

Onun sözlərinə görə, ermənilər əvvəlcə azərbaycanla bütün problemlərini həll etməlidir: "Əvvəlcə ermənilər sərhədlərin delimitasiyasını həyata keçirərək kommunikasiya xətlərinin açılmasına və sülh müqaviləsini imzalamaq üçün işçi qüvvəsinin yaradılmasına razılıq verməlidir. Daha sonra tərəflər bir-birinin ərazi bütövlüyünü tanıdıqdan sonra Türkiyə öz tərəfindən addımlar ata bilər. Bununla da Ermənistanla sərhədləri açaraq diplomatik əlaqələrin yaradılması barədə müəyyən razılaşmalar əldə oluna bilər. Əks təqdirdə onların söylədikləri hər bir şey əks təbliğat mahiyyəti daşıyır. Çünki bu məsələlər hamısı kompleks xarakterlidir. Ona görə də bunların həllində Türkiyə və Azərbaycan sinxron şəkildə hərəkət edəcək".

# Lana Ravandi-Fadai: "Tehran bu nəqliyyat dəhlizində Bakıdan daha çox maraqlıdır"

***Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Lana Ravandi-Fadai "Caliber" analitik mərkəzinə müsahibəsində İran-Azərbaycan əməkdaşlığının iqtisadi müstəvidə inkişafına, iki ölkə arasında nəqliyyat dəhlizləri məsələsində birgə layihələrə, regionda ticarət və kommunikasiya sahələrindəki əməkdaşlığın perspektivlərinə toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***



**- Ötən həftənin sonunda Bakıda Azərbaycanla İran arasında yeni kommunikasiya əlaqələrinin yaradılmasına dair anlaşma memorandumu imzalandı. Onun mühüm məqamlarından biri də İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya əlaqələrinin yaradılmasıdır. Bu sazişin perspektivlərini necə görürsünüz?**

- Təbii ki, memorandumun imzalanması Azərbaycan və İran arasında ikitərəfli münasibətlər üçün mühüm hadisədir. Bu əsas tədbir çərçivəsində hökumətlərarası komissiyanın keçirilməsi və sazişlərin bağlanması ölkələr arasında ticarət-iqtisadi əlaqələrin inkişaf istiqamətlərini əks etdirir. İranın Azərbaycanda avtomobil sənayesini inkişaf etdirmək niyyəti də bunu təsdiqləyir.

Koronavirus pandemiyasına baxmayaraq, ölkələr arasında daşımaların artması, o cümlədən İranın Qarabağ məsələsində mövqeyi, bu regionun bərpası proseslərində iştirak etmək marağı əməkdaşlığın intensivləşdirilməsi və birgə layihələrin həyata keçirilməsi üçün zəmin yaradıb. İran mətbuatının yazdığına görə, Astaraçay çayı üzərindən körpünün tikintisi layihəsi Rusiya ilə ticarətin inkişafı üçün də əlverişli şərait yaradacaq. Bütövlükdə razılaşmanın qeyd olunan məqamlarının hər iki ölkə üçün dönüş nöqtəsi ola biləcəyi aydındır.

**- Sizcə, İranla münasibətləri nəzərə alsaq, kollektiv Qərb buna necə reaksiya verə bilər?**

- Qərb bir tərəfdən tamamilə fərqli xarici siyasət məsələləri ilə məşğuldur. Çox güman ki, Qərbin belə bir niyyətlə təzyiqləri İranın nüvə proqramı ilə bağlı danışıqlarda güzəştə getməyincə bu layihələri dondura bilər.

Digər tərəfdən, 24 fevraldan sonra vəziyyət keyfiyyətcə dəyişdi. Qərb indi sanksiyalar nəticəsində bazardan çıxan Rusiya neftinin əvəzini axtarır və İran bu baxımdan yaxşı alternativdir. Bunu Qərb mətbuatının Vyanada baş tutmalı olan nüvə sazişi ilə bağlı elan edilmiş danışıqlardan müsbət gözləntiləri də göstərir.

Bu arada Ukraynadakı vəziyyət razılaşmanı və İrandan məhdudiyyətlərin götürülməsini təhlükə altına ata bilər. Fransa, İngiltərə və Almaniya artıq şənbə günü Rusiyaya xəbərdarlıq etmişdilər ki, onun İranla ticarəti təmin etmək tələbləri İrana qarşı sanksiyaların ləğvi ilə bağlı demək olar ki, tamamlanan razılaşmanı təhlükə altına qoyur. Fikir verirsinizsə, Tehran Rusiya-Ukrayna qarşıdurması ilə bağlı yüksək səslə bəyanatlar vermir. İran hakimiyyətinin Ukrayna ətrafındakı münaqişə ilə bağlı rəsmi mövqeyi hərbi əməliyyatlardan imtina, dərhal atəşkəs və danışıqlara çağırışdır. Bununla yanaşı, Tehran tərəflərin hərəkətlərinə qiymət vermir. Bu, İran üçün "atom" sazişinin imzalanmasının və sanksiyalardan qurtulmasının vacib olduğunu deməyə əsas verir. Bunun nəticəsində İran qərb bazarına qayıda bilər və qısa müddətdə sanksiyalar zamanı toplanmış 100 milyon barrel nefti bu bazara çıxara bilər. Qərb İran neftinin köməyi ilə bazarı sabitləşdirə və yanacağın qiymətini aşağı sala bilərdi. Bu kontekstdə Azərbaycanla İran arasında yeni kommunikasiya əlaqələrinin yaradılması Qərb tərəfindən kifayət qədər müsbət qarşılana bilər.

**- Dəhlizin açılması Ermənistanla İranın münasibətlərinə necə təsir edə bilər?**

- Düşünmürəm ki, Tehranla Bakı arasında münasibətlərin yaxşılaşması fonunda İrəvanla Tehran arasında münasibətlər pisləşə bilər. İran İrəvanın etibarlı ticarət tərəfdaşıdır. Təbii ki, yenə də üçüncü ölkələrin təsir rıçaqlarının təsiri altında İrəvan alternativlər tapa bilərdi. Amma hazırda bu münasibətlər əlverişlidir.

**- Bakının Naxçıvanla quru əlaqəsini bərpa etməsinin son dərəcə vacib olduğunu nəzərə alsaq, İran bu dəhlizdən Azərbaycana təzyiq rıçaqı kimi istifadə edə bilərmi? Bunun üçün ilkin şərtlər varmı?**

- Məncə, əksinə də ola bilər. İran Azərbaycandan ixrac və tranzitlə Bakının özündən daha çox maraqlıdır.

*Tərcümə - Elçin Bayramlı*

# Azərbaycan-Gürcüstan münasibətləri strateji əhəmiyyət daşıyır

***Müstəqil dövlət kimi, Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. Bu əlaqələrin qurulmasından artıq 30 il ötüb. Bu müddət ərizində iki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. Azərbaycanla Gürcüstan arasında diplomatik əlaqələr rəsmən 1992-ci ildə yaradılsa da, bu, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra inkişaf mərhələsinə daxil olub.***

Azərbaycan müstəqillik əldə etdikdən sonra 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir. Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir.



Azərbaycan və Gürcüstan arasında tarixən dostluq və mehriban qonşuluq münasibətləri yüksək səviyyədə olmuşdur. İki ölkə arasında strateji tərəfdaşlığın əsasını qoymuş 8 mart 1996-cı il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə", həmçinin 4 mart 2004-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Gürcüstan arasında Birgə Bəyannamə" konstruktiv əlaqələrin gələcək inkişafı üçün mühüm önəm daşıyır.

## "BİZİM BİRGƏ HƏYATA KEÇİRDİYİMİZ LAYİHƏLƏR HƏM ÖLKƏLƏRİMİZ, HƏM QİTƏ, HƏM DƏ DÜNYA ÜÇÜN ÖNƏMLİDİR"

Gürcüstan prezidenti xanım Salome Zurabişvilinin prezident seçilməsindən sonra regionda birinci səfərinin Azərbaycana olması dövlətlərin qonşu və dost ölkə olduğuna əsaslanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, biz əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamışıq: "Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir. Yəni, biz çox uğurlu əməkdaşlıq formatı yarada bildik". Gürcüstanla Azərbaycanı, hər şeydən əvvəl, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün iki dövlətin mövqeləri üst-üstə düşür. Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan və Azərbaycanın bütün sahələrdə çox uğurla əməkdaşlıq etdiyini və bu əməkdaşlığın böyük hissəsinin energetika sektoruna aid olduğunu bildirmişdi: "Bu əməkdaşlığın böyük tarixi var və biz birgə səylərlə çox önəmli böyük layihələri icra edə bilmişik. Əgər tarixə nəzər salsaq, görərik ki, hələ 1990-cı illərin sonlarında Bakı-Supsa neft kəmərinin tikintisi böyük hadisə idi. Bu, imkan verdi ki, Xəzər dənizi Qara dənizlə neft kəməri ilə birləşsin. Ondan sonra, əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri tikildi. Bütün bunları, biz, yəni üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə birgə səylərlə həyata keçirdik".

Həyata keçirilən bu layihələr iqtisadi inkişafa böyük təsirini göstərməkdədir. Gürcüstandan Azərbaycanın ixrac neft kəməri və ixrac qaz kəməri keçir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti də qonşu ölkədən keçir. Bu gün Azərbaycanla Gürcüstan arasında siyasi, iqtisadi, ticari, mədəni və bir çox digər sahələrdə əməkdaşlıq nünasibətləri dinamik inkişaf edir. Azərbaycan şirkətləri qonşu dövlətə ciddi sərmayə yatıran şirkətlər sırasında olmaqla, həm də bu ölkədə ən böyük vergi ödəyiciləridir.

Əlbəttə ki, iki dövlət arasında dostluq münasibətlərindən danışırıqsa, Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar əlaqələrin inkişafında önəmli rol oynadığını da bildirməliyik. Bütün sahələrdə uğurlu əlaqələr böyük layihələrin reallaşmasına səbəb olur və iki dövlət arasında olan dostluğun təməlini daha da möhkəmləndirir. Azərbaycanın Naxçıvan və Gürcüstanın Batumi, Gəncə şəhəri ilə Kutaisi və Rustavi, Sumqayıt ilə Rustavi, Şəki ilə Telavi şəhərləri arasında qardaşlaşma haqqında memorandumlar imzalanıb. Bu şəhərlərin rəhbərləri və ictimaiyyət nümayəndələri arasında görüşlər keçirilir, qarşılıqlı maraq doğuran məsələlər ətraflı müzakirə olunur, birgə layihələr reallaşdırılır. Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2009-cu il tarixli Sərəncamı ilə Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğu təsis edilmiş və 03 dekabr 2010-cu il tarixdən Baş Konsulluq rəsmi fəaliyyətə başlamışdır. Gürcüstanın Azərbaycandakı səfirliyi 1995-ci ilin fevral ayından etibarən fəaliyyət göstərir. Gəncə şəhərində Gürcüstanın Baş konsulluğu 12 dekabr 2013-cü il tarixində rəsmi fəaliyyətə başlamışdır.

## ƏMƏKDAŞLIQ MEMORANDUMU ƏLAQƏLƏRİN DAHA DA İNKİŞAFINA TÖHFƏ VERƏCƏK

Əlbəttə, hər iki dövlət arasında siyasi-iqtisadi münasibətlərin indiki səviyyəyə gəlib çatmasında Azərbaycan və Gürcüstan xalqları arasında tarixən mövcud olan sıx əlaqələr, mehriban qonşuluq münasibətləri mühüm baza rolunu oynayıb. Son illərdə isə ölkələrimiz arasında mehriban dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsi hər iki dövlətin parlaq gələcəyinin təmin olunması üçün möhkəm əsas yaradıb.

Bildiyimiz kimi, Azərbaycan-Gürcüstan dostluğunun çox qədim tarixi kökləri var. Əsrlər boyu qonşu olan Azərbaycan və gürcü xalqları arasında heç bir zaman ciddi problem, münaqişə olmayıb. Azərbaycan-Gürcüstan dostluğu Cənubi Qafqazda əməkdaşlığın və təhlükəsizliyin qarantına çevrilib. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə dəstək olublar. Xalqları birləşdirən istər tarixi əlaqələr, istər çoxəsrlik dostluq, qardaşlıq münasibətləri möhkəm təməl üzərindədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari ilin martın 11-də Gürcüstanın ədliyyə naziri Rati Breqadzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi bu əlaqələrin davamlı olmasında dəlalət edir. Görüşdə Azərbaycanla Gürcüstan arasında dostluq əlaqələrinin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat, enerji, ticarət sahələrində uğurla inkişaf etdiyi bildirilib. Söhbət zamanı Azərbaycanın və Gürcüstanın Ədliyyə nazirlikləri arasında təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətinə toxunulub, Qeyd edək ki, Rati Breqadzenin ölkəmizə səfəri çərçivəsində nazirliklər arasında imzalanan Əməkdaşlıq Memorandumu bu sahədə əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəkdir. İki ölkə arasında getdikcə genişlənən əlaqələr 30 il ərizində aparılan uğurlu əməkdaşlığın nəticəsidir.

*Zümrüd BAYRAMOVA*

# "Rusiyada mərkəzdənqaçma meyilləri sürətlənib"



SİA politoloq Samir Hümbətovun müsahibəsini təqdim edir:

***- Rusiya ilə Ukrayna arasında müharibə davam edir. Ötən günlər ərzində rus ordusunun qarşıya qoyulan hədəflərə çatmadığı deyilir. Siz hadisələrin gedişini necə proqnozlaşdırırsınız, proses hansı nəticələrlə yekunlaşa bilər?***

- Artıq fevral ayının 24-dən Rusiya Ukraynaya qarşı hərbi əməliyyatlara start verib. Hadisələrin gedişi bunu göstərir ki, Rusiya qarşıya qoyduğu hədəflərə çata bilməyib. İndiki vəziyyətdə, Ukrayna tərəfinin verdiyi rəsmi məlumata görə, Rusiya 13 minə yaxın canlı qüvvə və çoxlu sayda hərbi texnika itirib. Bu onu göstərir ki, Rusiya reallığı yavaş-yavaş dərk edir. Müharibədə öncə Rusiya tərəfi belə başa düşürdü ki, 72 saat ərzində Kiyevi də alaraq bütün Ukraynanı ələ keçirə biləcək və özlərinin istədikləri rejimi hakimiyyətə gətirməklə bunula işi tamamlamış olacaqlar. Müharibənin gedişatı onu göstərdi ki, Rusiyanın hesabladığı kimi deyil. Rusiya müharibənin ilk günlərində irəli sürdüyü şərtləri yavaş-yavaş sıradan çıxartmağa başlayıb. Artıq 4 dəfə Rusiya və Ukrayna arasında görüş keçirilib və hər görüşdə Rusiya geri addım atır. Dünya ölkələri tərəfindən Rusiyaya qarşı tətbiq edilən sanksiyalar davam edir. Rusiya daxilində müharibəyə etiraz edənlərin sayı artmaqdadır. İqtisadi sanksiyalar artıq ruslara təsir edir.

***- Nəticədən asılı olmayaraq, sərt sanksiyalar altında qalan və müharibədə Ukrayna ordusundan ağır zərbələr alan Rusiyanın keçmiş sovet məkanında mövqelərinin zəifləyəcəyi də müzakirə mövzusudur. Siz bu haqda nə düşünürsünüz?***

- İndiki vəziyyətdə müharibənin dayanması gözlənilmir. Çünki Rusiya müharibəni birdən-birə dayandırarsa, sual olunacaq ki, niyə Ukrayna ərazisinə girdin. Ukrayna şəhərləri bu gun dağıdılmış vəziyyətdədir. Rusiya geri çəkiləcəksə müqavilə imzalamalıdır. Qərb mətbuatında yazılır ki, Rusiyanın dondurulmuş pulları Ukraynaya verilməlidir. Deməli Ukraynanın dağıdılmış şəhərlərinin bərpası üçün təzminat qoymaq istəyirlər. Rusiyanın nufuzu aşağı düşür. Ukrayna xalqı qalibdir. Çünki öz torpaqlarını müdafiə etmək üçün vuruşur.

***- Azərbaycanın bu cür təhlükələrdən siğortalanıbmı? Türkiyə ilə müttəfiqlik bəyannaməsinin bizim üçün önəmi nədir?***

- Şuşa Bəyannaməsinin imzalanması Azərbaycana böyük dəstəkdir. Eyni zamanda Türkiyə kimi dost, qardaş, həm də güclü dövlət Azərbaycan torpaqlarının təhlükəsizliyi, ərazi bütövlüyünün qarantı rolunda çıxış edir. Xalq ordumuzun arxasındadır. Digər ölkələrin belə şansı yoxdur, olsa da çox kövrəkdir. Hər kəs öz milli maraqlarında çıxış edir. Məsələn, Çin Rusiyanın tərəfdaşıdır, amma bu müharibədə Rusiyanı dəstəklədiyini bəyan etməyib. Məhz bunun nəticəsidir ki, Ukrayna xalqı bu gün özünü toparlayıb və əks hücumlar başlanıb. Rusiya tərəfi bəyanat verib ki, Ukrayna xəstəxanasını özləri vurub. Belə apsurd bəyanat olmaz. Kiyevdə mülki vətəndaşların qaldığı binalar vurulur.

***- Rusiya mülki vətəndaşlara atəş açmaqla nəyə nail olmağa çalışır?***

- Burada məqsəd birdir, əhalinin gözünü qoruxutmaq. Yerli insanlar da Rusiya ordusuna dirəniş göstərir. Rusiya bəyanat verib ki, Ukraynanın 3 min hərbi obyekti sıradan çıxarılıb. Bu yalnış informasiyadır. Antalya forumunda Rusiya tərəfinə sual olunur ki, xəstəxananı niyə vurmusuz, cavab isə o olur ki, orda hərbi işlər aparılırdı. Bu mənasız cavab idi. Bu gün Ukrayna ərazisində xarici dövlətlərin, həmçinin ABŞ-ın və Rusiyanın kəşfiyyat orqanlarının fəaliyyət göstərdiyini bilirik.

***- Rusiyanın daxilində müharibə olması gözlənilirmi?***

- Daxili müharibə olmasa da, etiraz aksiyaları getdikcə sürətlənir. Oliqarxlar belə Kreml Administrasiyasına qarşı hərəkətə keçdiyi görsənir. Mərkəzdənqaçma meyilləri sürətlənib. Etiraz aksiyalarının sürətlənsə və polis güc tətbiq edərsə bu qarşıdurmalar yarada bilər.

***- Rusiya və Ukrayna müharibəsində Türkiyənin baxışı necədir?***

- Türkiyə Ukraynanı birmənalı dəstəkləsə də neytrallığı qorumağa çalışır. Ukraynaya hərbi silahların göndərilməsini də dəstəkləyir. Ukrayna-Rusiya müharibəsində Bayraktar geniş istifadə olunur.

***Qönçə Quliyeva***

# Lavrov: "Gürcüstanı "3+3" formatında görməyə hazırıq"



***"Rusiya gürcü həmkarlarını "3+3" formatının iclaslarında görməyə hazırdır". SİA xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvada türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə birgə mətbuat konfransında deyib.***

"Cənubi Qafqazdakı vəziyyəti müzakirə edərkən, qeyd etdik ki, ötən ilin sonunda, bu ilin əvvəlində bu bölgədə post-münaqişə əməkdaşlığı üçün "3+3" regional məşvərət mexanizmi vasitəsilə təməl qoyulub. Burada Azərbaycan, Ermənistan, Rusiya, İran, Türkiyə ilə yanaşı, həlelik bu perspektiv formata qoşulmaq üzərində düşünən Gürcüstan yer alır. Biz dəfələrlə vurğulamışıq ki, gürcüstanlı həmkarlarımızı bu strukturun iclaslarında görməyə hazırıq", - S.Lavrov deyib.

# Düşmənlə məxfi əməkdaşlıq edən şəxs ifşa edilib




Azərbaycanın milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkar edilməsi və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən kompleks əks-kəşfiyyat tədbirləri davam etdirilir. SİA xəbər verir ki, bu barədə DTX-nin saytı məlumat yayıb.

Başlanılan cinayət işi üzrə Azərbaycan vətəndaşı, 1981-ci il təvəllüdlü Məmmədov Emil Ramiz oğlu dövlətə xəyanət etməkdə şübhəli bilinib. Aparılan araşdırmalarla Emil Məmmədovun Azərbaycanın suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə düşmən tərəfinə keçməklə xarici xüsusi xidmət orqanının nümayəndələrinin tapşırıqlarını yerinə yetirərək onlara kömək etmək məqsədilə maddi maraq müqabilində üçüncü ölkə ərazisində Ermənistan xüsusi xidmət orqanının əməkdaşları ilə görüşüb məxfi əməkdaşlığa cəlb edilməsi, Azərbaycanın dövlət təhlükəsizliyi zərərinə istifadə oluna biləcək məlumatların toplanması barədə tapşırıqlar alması, verilmiş tapşırıqların icrası istiqamətində fəaliyyət göstərməsi, Ermənistan xüsusi xidmət orqanının nümayəndələri ilə əlaqələrinin gizliliyinə və konspirasiya tələblərinə dair təlimatlandırıldığı qaydalara riayət etməsinə əsaslı şübhələr müəyyən edilib.

Emil Məmmədov Azərbaycan Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb olunaraq məhkəmənin qərarına əsasən həbs edilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# "Görüş Türkiyə-Azərbaycan müttəfiqliyini daha da dərinləşdirəcək"



***"Azərbaycan Prezidenti İlham Əliyevin qardaş Türkiyəyə səfəri dünyada və regionumuzda baş verən mürəkkəb geostrateji proseslər kontekstində baş tutdu. İstər regional, istərsə də qlobal siyasi proseslər baxımından diqqətçəkici olan bu səfər hər şeydən öncə dünyada formalaşmaqda olan yeni geostrateji arxitekturada Türkiyə və Azərbaycanın yerinin və rolunun müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.***

Onun sözlərinə görə, bu gün Yaxın Şərq və postsovet məkanında hibrid və vəkalət müharibələrinin alovlandığı bir vaxtda Türkiyə və Azərbaycanda sülh və əmin-amanlığın mövcud olması hər şeydən öncə Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın müstəsna liderlik keyfiyyətləri ilə bağlıdır: "Cənab Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan aldıqları mühüm strateji qərarlarla 21-ci əsr türk tarixinə öz möhürlərini vurmuş liderlər kimi düşüb. Məhz alınan kritik qərarlar bu gün Cənubi Qafqaz kimi mürəkkəb regionda sülhün və əməkdaşlığın inkişafı üçün yeni şərtlər formalaşdırıb. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri və bu səfər çərçivəsində iki ölkənin qarşılıqlı maraqları çərçivəsində bütün məsələlərin müzakirə edilməsi hər iki ölkənin təhlükəsizliyi və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edir.

Görüşün 4 saatdan çox davam etməsi yeni dünya nizamında iki qardaş ölkənin oynayacağı rolun koordinasiya edilməsi, çoxqütblü beynəlxalq sistemdə strateji müttəfiq olaraq onların yerinin və rolunun müəyyən edilməsi ilə zəruri idi. Hazırda dünyada baş verən mürəkkəb proseslər kontekstində milli dövlətlərin öz təhlükəsizliyini təmin etməsi olduqca çətin bir vəzifəyə çevirilib. Hazırda etnik və demoqrafik baxımdan yaxın olan xalqlar belə biri digəri üçün təhlükə və təhdid kimi görülür. Ancaq türk dünyasının tarix boyu yetişdirdiyi ən böyük liderlərdən olan İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan qəbul etdikləri strateji və uzaqgörən qəralarla iki qardaş ölkənin təhlükəsizliyinin təmin edilməsi kimi mühüm tarixi vəzifənin öhdəsindən layiqincə gəlirlər. Hazırda ortaq etnik kökdən, ortaq mədəniyyətdən və siyasi keçmişdən gələn xalqların bir-biri ilə amansız müharibə apardığı bir vaxta Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı bir möcüzədir. Bu möcüzənin müəllifləri isə iki qardaş ölkənin prezidentləridir. İndi son bir neçə ildə baş verən hadisələrə bir daha diqqətlə nəzər saldıqda Şuşa bəyannaməsinin nə qədər vaxtında və yerində imzalanmış bir müttəfiqlik sənədi olduğunu aydın görmüş oluruq. Bu sənəd mümkün bütün təhdid və təhlükələrə qarşı iki qardaş ölkənin gücünü birlikdə səfərbər edərək öz təhlükəsizliklərini qorumaq üçün mühüm hüquqi təminat yaradır. Şübhəsiz ki, Azərbaycanın böyük uzaqgörənliklə vaxtında aldığı qərarlar bugünkü müttəfiqliyimizin iqtisadi və geostrateji əsaslarını təşkil edir. Əgər, vaxtında Bakı-Tibilisi-Ceyhan, Bakı-Tibilisi-Qars, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi kimi mühüm strateji layihələr həyata keçirilməsəydi, milli gücümüzün iqtisadi komponetləri bu qədər zəngin olmazdı. Əldə etdiyimiz tarixi zəfərimizdən sonra isə bu layihələrin davamı olaraq Zəngəzur dəhlizinin açılması zəruri şərt kimi ortaya çıxır. Bu dəhlizin açılması bütün region ölkələrinin strateji maraqları çərçivəsindədir ki, bu da Azərbaycanın həyata keçirdiyi strateji diplomatiya sayəsində mümkün olub. Ona görə də əminliklə deyə bilərik ki, Ankarada keçirilən görüş Türkiyə-Azərbaycan müttəfiqliyinin daha da dərinləşməsi və regionumuzda sülhün davamlı olması baxımından mühüm əhəmiyyət kəsb edəcək".

***Arzu Qurbanzadə***

Təhlil

# Müharibə Rusiyaya baha başa gəlir

***Vladimir Putinin apardığı mənasız müharibə artıq minlərlə insanın həlak olması, ağır yaralanması və ya travma alması ilə nəticələnib. Bu, həm də Ukraynanın evlərinin və infrastrukturunun dağıdılmasına səbəb olub. Ukraynanı tərk edənlər evlərinə nə vaxt qayıda biləcəkləri və orada nə tapacaqları ilə maraqlanırlar. Sözsüz ki, qarşıda daha çox faciə görünür. Buna görə də atəşkəs istəyi durmadan artır, amma görək, prezident Putinin ən iddialı məqsədlərinə çatması üçün səy göstərdiyi, çalışdığı müddətdə bunun hansı formada olacağını təsəvvür etmək mümkündürmü?***




Bu müharibənin necə bitəcəyini təbii ki, bir çox insanın qərarları müəyyən edəcək. Ukraynalı mülki əhali Rusiyanın onların ərazilərini amansızcasına bombalaması qarşısında möhkəm dayana biləcəkmi? Ukraynalıların yüksək əhval-ruhiyyəsi, vətənpərvərlik ruhu bu qədər dağıntılardan, itgilərdən, yaxud ola biləcək ciddi uğursuzluqdan sonra yenə də olacaqmı? Yaxud, Rusiyada insanlar müharibənin məqsədləri ilə bağlı aldandıqlarını anlayanda və gənclərinin nəticəsiz, mənasız şəkildə həlak olduğunu dərk edəndə, ya da qəbul edəndə Rusiya tərəfində nə baş verəcək? Bir çox əsgər, çağırışçı düşdüyü qorxulu və gözlənilməz vəziyyətə necə reaksiya verəcək? Bəs insan və texnika itkisindən, ehtiyatın azlığından təşvişə düşən, nə əmri yerinə yetirə, nə də geri çəkilə bilməyən zabitlər necə olacaqlar? Putinin ətrafı müharibənin pis getdiyini anlayaraq hazırkı strategiyanın dəhşətli nəticələrini öz liderinə necə izah edəcək? Putinin özü necə olacaq? Hansı məqamda o, karyerasının ən böyük oyununu uduzduğunu anlayacaq?







Nəzərə alaq və xatırladaq ki, Rusiya indiyədək fevralın 24-dən əvvəl Ukrayna ətrafında cəmlədiyi qüvvələrin 90%-dən çoxunu səfərbər edib, amma hələ də öz ilkin tapşırıqlarını yerinə yetirə bilmir. Təqdim olunan mövcud durum belə rusların üzləşdiyi çətin vəziyyəti tam şəkildə ifadə etmir. Vəziyyət heç də bir sıra qeyri-adi videolarda göründüyü kimi deyil və alındığı iddia edilən şəhərlər də əslində tam şəkildə rusların əlində deyil. Bunu hadisələrin gedişatı məntiqi şəkildə göstərir. Əhali, ukraynalılar qətiyyətlə Ukraynaya sadiq olaraq qalır ki, bu da nəinki onların Rusiya işğalından narazı olduqlarını göstərir, bu, həm də effektiv nəzarətin olmamasının üsyana çevriləcəyi təqdirdə Rusiya bölmələri üçün ölümcül nəticələrə səbəb ola biləcəyi barədə xəbərdarlıq deməkdir. Çernobıl yaxınlığındakı Pribirskdən Kiyev yaxınlığındakı Antonov hava limanına qədər uzanan 60 kilometrlik rus karvanı günlərdir ki, yerindən tərpənmir, heç yerə getmir və bu karvan xarab olmuş, tərk edilmiş və ya Ukrayna qüvvələrinin hücumuna məruz qalmış avtomobillərlə doludur. Uzdə olan real mənzərə Rusiyanın zəif planlamasını və məhdud avadanlıqlarla təchiz olunduğunu təsdiq edir.

Təbii ki, əgər ukraynalılar müharibənin ilkin mərhələlərindən irəliləyən rus ordusu ilə açıq meydanda vuruşmalı olsaydılar, ağır məğlubiyyətə uğrayardılar. Lakin göründüyü kimi, rusların hücumu bir neçə istiqamətdə və hətta bu istiqamətlərdə dağınıq şəkildə və parçalanmış şəkildə oldu. Bu da ukraynalılar üçün ayrı-ayrı bölmələri vurmaq baxımından yaxşı imkan demək idi. Nəticədə ruslar Kiyevi mühasirəyə almaq məqsədi ilə qoşun toplamaq üçün kifayət qədər mübarizə apardılar, insan və texnika baxımından böyük itkilər verdilər. Əməliyyat zamanı rus komandirləri cəbhəyə keçərkən və hücum qüvvələrini təşkil etməyə çalışarkən həlak oldular. Bu, təbii ki, Rusiyanın itgisi idi və bunu ruslar yaxşı bilirlər.

Ruslar, görünür, boşluqları doldurmaq, yəni, istər ehtiyat qüvvə çağırmaq, istərsə də daha çox muzdlu əsgər cəlb etmək və ya Rusiyanın digər bölgələrindən bölmələr toplamaq üçün əlavə qüvvələr tapmağın yollarını axtarırlar. Amma bu, Rusiya üçün risklər deməkdir. Əvvəla heç bir ölkə digər düşmənlərin istifadə edə biləcəyi həssas vəziyyətlər yaratmaq istəməz. Digər tərəfdən də, hazır olmayan qoşunların səfərbər olunması və cəbhəyə doğru irəliləməsi təchizat xətlərində daha da böyük "yük" yarada bilər.

Təbii ki, cənubda müharibə fərqli şəkildə müşahidə olunur. Ruslar eyni logistik problemlərlə üzləşmədilər və Qara dənizdəki Ukrayna limanlarına hücum edə bildilər. Onlar Donbassın separatçı rayonlarını Krımın ilhaq edilmiş ərazisinə birləşdirməyə yaxındırlar və hətta bəzi analitiklər Putinin onları məhdudlaşdırmaq qərarına gəldiyi təqdirdə bu əraziləri hər zaman mümkün hərbi əməliyyat hədəflərindən biri kimi hesab edirlər. Ruslar Xersonda azadedicilər, ”xilaskar” kimi qarşılanmadılar və onlar da burada qanlı qırğınlar törətdilər, dinc əhalinin qaçmasına belə imkan vermədilər. Bütün bunlara baxmayaraq, ruslar hələ də Mariupolu da ələ keçirə bilməyiblər. Doğrudur, ruslar bu vəhşiliklərin ardınca onlara qarşı çıxanların daha itaətkar olacaqlarını gözləyirdilər və elə zənn edirdilər ki, bununla əraziləri daha tez ələ keçirə bilərlər, amma göründüyü kimi, yanılıblar. Göründüyü kimi, rus qoşunları bəzi şəhərlərə daxil olsalar da, onlardan heç biri hələ də təslim olmayıb.

Xüsusilə, Kiyev və Xarkov müqavimət göstərməyə davam edərsə, rus ordusunun bu şəkildə nə qədər dayana biləcəyi ilə bağlı müxtəlif təxminlər var. Ehtiyatları artırmaq üçün ciddi səylər olmadan, bunun 3 həftədən çox davam etməyəcəyi güman edilir. Ruslar uzunmüddətli müharibə planlaşdırmamışdılar və müharibənin uzun müddət davam edəcəyi hal üçün tədbirlər görməmişdilər. Təbii ki, müharibələr tez yekunlaşdırıla, qalibiyyət tez də əldə oluna bilər. Məsələn, 1967-ci ilin iyununda İsrail Misirdən Sinayı, İordaniyadan İordan çayının qərb sahilini, Suriyadan isə Qolan təpələrini altı gün ərzində aldı. Belə nümunələr yenə də var və buna Azərbaycanın öz torpaqlarını 30 illik işğaldan cəmi 44 gün ərzində azad etməsi savaş nümunəsini də əlavə etmək yerinə düşərdi. Lakin Azərbaycan işğalçı ölkə deyildi və məqsəd işğalçını öz torpaqlarından qovmaq, terrorun, terrorçuluğun, separatçılığın kökünü kəsmək idi ki, buna da öz gücü ilə, qüdrəti ilə, güclü, qüdrətli, uzaqgörən, qətiyyətli Ali Baş Komandanının rəhbərliyi ilə, xalqın həmrəyliyi, ordusunun şücaəti ilə nail oldu. Məsələ burasındadır ki, fərqli olaraq, Rusiya təcavüz etdi və istədiyinə nail ola bilmədi, əslində getdikcə uduzmaqda, daha böyük itgilərlə, daha acınacaqlı durumla qarşılaşmaqdadır.

Cəbhə xətti durğunlaşdıqdan və hücum dayandıqdan sonra problemlərin qabaracağı bəlli məsələdir. Müharibə nəticəsində ölkələrin iqtisadi və sənaye gücünün necə zəifləyi heç kim üçün qaranlıq məqam deyil. Buna görə də Kreml artıq narahat olmalıdır. Əslində, narahatdır da. Ona görə narahatdır ki, Rusiya Ukraynada qaldıqca, onun sanksiyalar altında olan iqtisadiyyatı daha böyük çətinliklərlə üzləşəcək. Müharibə aparmaq Rusiyaya baha başa gəlir. Bunun Rusiya vətəndaşları ilə yanaşı bütün dünya da bilir. Yayımlanan məlumatlara görə, gündəlik xərclə təxminləri 500 milyon dollardan 20 milyard dollara qədərdir. Bu rəqəmlər heç də kiçik rəqəmlər deyil və hərhansı ölkə üçün, onun iqtisadiyyatı üçün çox böyük zərbədir.

Tez bir zaman fasiləsində silahlı ukraynalıları alt-üst edəcək modernləşdirilmiş və bacarıqlı rus ordusu haqda müharibədən əvvəl dolaşan fərziyyələr, miflər artıq darmadağındır. Doğrudur, rusların bu müharibəni uduzacağına dair əks fərziyyəni də qəbul etmək çətindir. Burada iştirakçıların əhval-ruhiyyəsi, döyüş ruhu önəmli sayılır. Əgər Rusiyanın hələ də sadə ukraynalıların həyatını acınacaqlı vəziyyətə salmaq və bunkerlərə girməyənləri də oraya sürükləmək üçün öz atəş gücündən istifadə etmək imkanları olmasaydı, onun uğursuz olduğunu söyləmək olardı. Ordusunun patoloji çaşqınlıq göstərdiyi, ən azından cənubdan uzaqda maddi-texniki təchizatının, sözün həqiqi mənasında parçalandığı, idarəetmə sistemlərinin pisləşdiyi və qoşunların ruhdan düşdüyü bir reallıqdır. Müharibənin qeyri-müəyyən bir məsələ, bir məqam olduğunu da vurğulamalıyıq. Bəlekі, ukraynalılar daha çox əks-hücumlar təşkil edə bilsələr və Rusiya qüvvələrini sadəcə onları saxlamaq əvəzinə geri itələməyə başlasalar, o zaman vəziyyət daha kəskin şəkildə dəyişə bilər. Bu baxımdan Ukraynanın ən böyük ümidi mümkün qədər uzun müddət müdafiə olunaraq iqtisadi sanksiyaların həyata keçməsi, qarşı tərəfi zəiflətməzi, bir növ sıxışdırması üçün şərait yaratmaqdır.

Daha bir başqa məqam da diqqəti cəlb etməyə bilməz. Bəlekі, mövcud vəziyyət səbəbindən rus xalqının necə ruhdan düşdüyü, böyük bir güc olduqları barədə ümidlərinin puça çevrilməsi fonunda necə mənəvi sarsıntı keçirdiyi də bir reallıqdır. Təkcə bununla da bitmir və indi ruslar daha böyük məhrumiyyətlərlə, sanksiyalarla üz-üzədirlər. Rus xalqının itgisi az deyil. Sıravi Rusiya vətəndaşı məhrumiyyətlərlə üzləşib. Ruslar məhz bu müharibə səbəbindən sıxıntı keçirirlər və Rusiya iqtisadiyyatına dəyən ziyanı, zərəri nəzərə alsaq, onların bundan sonra da çıxıntı keçirəcəklərini təkzib etmək olmaz. Bəli, müharibə heç bir tərəfə itgisiz ötüşə bilməz. Ukraynanın dağılmış şəhərlərinin bərpası, itgilərini yerinin doldurulması üçün nələrlə üzləşdiyi bəllidir. Ukraynalılar, ən yaxşı halda tərk etdikləri yurd-yuvalarına qayıdanda orada öz evlərini görməyə, yaxud dağılmış vəziyyətdə görə bilərlər, amma onlar dərk edirlər və edəcəklər ki, bura onların vətənidir və itirdikləri də vətənin müdafiəsi üçün olub. Bəs ruslar belə düşünə biləcəklərmi? İndi məhrumiyyətlərlə qarşılaşan ruslar təkcə indiki zaman üçün itirmədilər, onlar gələcək ümidlərini də itirdilər. Görəsən, bu vəziyyətlərini mövcud hakimiyyətə bağışlayacaqlarmı? Bu suala zaman özü cavab verəcək, amma hər bir halda vəziyyətlə barışmayacaqlar. Daha dəqiq desək, hər bir halda müharibə Rusiyaya baha başa gəlir.

***İnam Hacıyev***

# Dövlət çevrilişi cəhdinin qarşısı müdriklik və qətiyyətlə alındı

*Yaşadığımız tarixdən məlumdur ki, müstəqillik qazandıqdan sonra Azərbaycan xalqı çox əzab-əziyyətlə qarşılaşmış, torpaqlarının işğalçılardan azad edilməsi, ərazi bütövlüyünün təmin olunması uğrunda mübarizədə çoxlu qurbanlar vermişdir. Məhrumiyyətlərə düçar olan xalqımız çətinliklə qazandığı müstəqilliyin müdafiəsində mətanətlə dayanmış, mücadilə etmişdir.*



Etiraf edək ki, müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan səriştəsiz, bacarıqsız qüvvələrə haqlı olaraq narazılıqlar var idi. Dövlətçiliyinin itirilməsi təhlükəsi qarşısında qalmış Azərbaycan xalqı zəngin dövlət rəhbərliyi təcrübəsinə və siyasi nüfuza malik olan Ulu Öndər Heydər Əliyevi özünə rəhbər tələb etdi. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə respublikada yaranmış son dərəcə gərgin vəziyyətin sabitləşdirilməsi üçün sağlam qüvvələrin köməyi ilə qardaş qırğınının, Azərbaycan dövlətinin parçalanmasının qarşısını alındı. Ulu Öndər tərəfindən ölkəmizdə milli birliyə aparan siyasət xətti həyata keçirilməyə başlanıldı. Qısa bir zamanda cəmiyyət həyatının bütün sahələrində yeni münasibətlərə yol açmaq, islahatların əsaslarını yaratmaq üçün tədbirlər görülür və davam etdirilirdi.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan həyatında yeni başlanğıcın əsasını qoydu. Bu saziş Azərbaycan cəmiyyətinin inkişafına, iqtisadiyyatın dirçəlməsinə, beynəlxalq mövqemizin möhkəmlənməsinə, xalqın vəziyyətinin yaxşılaşmasına töhfə verdi. Görülən işlərdən xoflanan cinayətkar ünsürlər, Azərbaycan Respublikasının müstəqilliyini öz çirkin məqsədlərinə qurban verməyə hazır olan, Azərbaycanı başqa dövlətlərin himayəsində görmək istəyən qüvvələr dərhal təşvişə düşdülər və məkrli planlar həyata keçirməyə başladılar. Bunlardan biri də 1995-ci ilin mart hadisələridir. Azərbaycan dövlətçiliyinə və müstəqilliyimizə qarşı yönəlmiş dövlət çevrilişi cəhdindən artıq 27 il ötür. 1995-ci il mart ayında müstəqilliyimizə qəsd etmək istəyənlərin məkrli niyyətləri bu gün də insanların yaddaşından silinməyib. Bir qrup xəyanətkar insan ətrafına topladığı qeyri-qanuni silahlı birləşmələr vasitəsilə müstəqilliyimizə qəsd etməyə cəhd göstərmişdi. Ölkədə yaradılmış ciddi nizam-intizama tabe olmaq istəməyən dağıdıcı qüvvələr Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan təşvişə düşərək, xarici himayədarlarının təhriki ilə dövlət çevrilişinə cəhd etmişdilər.

## ULU ÖNDƏRİN XALQA MÜRACİƏTİNƏ CAVAB OLARAQ YÜZ MİNLƏRLƏ İNSAN GECƏYARISI PREZİDENT APARATININ QARŞISINA TOPLAŞDI

Xatırlatmaq yerinə düşər ki, buna qədər 1994-cü il oktyabrın 2-də Surət Hüseynov və Rövşən Cavadovun başçılığı ilə dövlət çevrilişinə silahlı cəhd göstərildi. Ümummilli Liderin vəziyyəti sabitləşdirmək üçün görüyü tədbirlər, xalqın əzmi çevriliş etməyə çalışan qüvvələri taqətdən saldı. Böyük siyasi xadim bu hadisələrdə də ilk növbədə xalqın köməyinə arxalandı. Oktyabrın 4-də axşamdan xeyli keçmiş Ulu Öndər xalqa müraciət etdi. Bu müraciətə cavab olaraq yüz minlərlə insan gecəyarısı Prezident Aparatının qarşısına toplaşdı. Oktyabrın 4-dən 5-nə keçən gecə Prezident Aparatının qarşısında başlanan və on minlərlə insanın iştirak etdiyi möhtəşəm mitinq səhərədək davam etdi. Oktyabrın 5-də gündüz Azadlıq meydanında bir milyona yaxın insanın iştirak etdiyi ümumrespublika mitinqi keçirildi. Bütünlükdə 4 və 5 oktyabr mitinqləri xalq-iqtidar birliyinin parlaq təcəssümü idi. Həmin birlik qarşısında heç bir pozucu qüvvə tab gətirə bilməzdi. Yerlərdəki sağlam qüvvələr bu birliyə arxalanaraq müstəqilliyimizə və dövlətçiliyimizə qarşı çıxanları yerində oturtdular.

Azərbaycanda dövlət çevrilişinə cəhd mart hadisələri 1995-ci ilin mart ayının 12-dən 13-nə keçən gecə ölkənin ən ucqar nöqtəsində - Qazaxda və Ağstafada başladı. Həmin gün "OMON"-un Ağstafa və Qazax rayonunda yerləşən bölməsi tərəfindən dövlət idarələrinə silahlı hücum təşkil edildi. Hər iki rayonda dövlət əleyhinə faktiki qiyam baş verdi. Lakin mart ayının 15-də Azərbaycan Ordusunun bölmələri tərəfindən qiyam yatırıldı.

16-17 mart tarixində isə Xüsusi Təyinatlı Polis Dəstəsinin komandiri polkovnik Rövşən Cavadovun rəhbərliyi ilə Bakıda çevrilişə cəhd göstərmək istəyirlər. Hələ martın 14-də daxili işlər naziri "OMON"-un buraxılması və onun üzvlərinin 3 gün ərzində silahı təhvil verməsi barədə əmr imzalamışdı. Əmrə görə, silahı könüllü təhvil verənlər törətdikləri əməllərə görə cəzalandırılmayacaq və DİN sistemində müvafiq işlə təmin ediləcəkdilər. Bundan 2 gün sonra, yeni silahlı qarşıdurma ərəfəsində Ulu Öndər Heydər Əliyev "OMON"-çuları bağışlanmaq imkanı yaradan xüsusi Fərman imzalayır.

Onu da bildirək ki, Ümummilli Lider Heydər Əliyev 1995-ci il martın 15-də televiziya və radio ilə xalqa müraciətində Surət Hüseynovun, Rövşən və Mahir Cavadov qardaşlarının, onlarla həmrəy olan radikal müxalifət nümayəndələrinin dövlət çevrilişi cəhdini pisləyərək, qeyri-qanuni silahlı qruplaşmalara qanunsuz əməllərindən əl çəkmələri barədə dəfələrlə xəbərdarlıq etmişdi, onları əfv edəcəyini bildirmişdi. Hətta Cavadov qardaşlarının atası Bəxtiyar Cavadovla da söhbət aparmış, ona oğlanlarını vətəndaş müharibəsi və silahlı qarşıdurma yaratmaqdan çəkindirməyi tövsiyə etmişdi. Lakin bütün mümkün vasitələrdən istifadə edilməsi müsbət nəticə verməmişdir. Rövşən Cavadov açıq-aşkar dövlət çevrilişi etmək üçün hazırlığı genişləndirmiş, müxtəlif cinayət qrupları ilə, adamlarla, cürbəcür siyasətbazlarla danışıqlar aparmışdır.

## "CƏMİYYƏT, XALQIMIZIN MİLLİ BİRLİYİ, VƏTƏNDAŞ BİRLİYİ ONLARIN HAMISINI YOLUMUZUN ÜSTÜNDƏN KƏNARA ATACAQDIR"

Cəmiyyətdə dövlət çevrilişinə cəhd göstərənlərə qarşı şiddətli nifrət yaranmışdı. Xalq kütlələri bütün bu hoqqabazlıqlara, xəyanətkar və cinayətkar əməllərə son qoyulmasını tələb edirdi. R.Cavadovun adamlarının, eyni zamanda, proseslərdən faydalanmaq arzusuna düşən dağıdıcı müxalifət partiyalarının nümayəndələrinin xalq arasında apardığı təbliğat işləri isə, heç bir nəticə vermirdi. Əksinə, belələri ictimaiyyətin qınağına tuş gəlir və ağır ifadələrlə təhqir olunmaqdan belə yan keçə bilmirdilər.

1995-ci il martın 16-dan 17-nə keçən gecə isə paytaxtın 8-ci kilometr qəsəbəsindəki "OMON" - çuların qərargahı yaxınlığında başlanan atışmada dünənədək cəbhə bölgəsində, erməni təcavüzkarları ilə savaşda səngər yoldaşı olmuş döyüşçülər üz-üzə dayandılar. Ermənistan silahlı qüvvələri torpaqlarımızı işğal etdiyi bir vaxtda, Azərbaycanın paytaxtında bir qrup vəzifə hərisi hakimiyyəti ələ keçirmək üçün dövlətçiliyimizə qəsd edirdi. Onların hakimiyyət hərisliyi nəticəsində, qardaş qanı töküldü. Cavadov qardaşlarının hakimiyyəti qeyri - konstitusion yolla ələ keçirmək cəhdləri 22 hərbçi, 7 mülki şəxs, 1 polis və 8 XTPD əməkdaşının ölümünə səbəb olmuşdu. Hadisə nəticəsində, 105 nəfər yaralanmışdı. XTPD rəhbəri Rövşən Cavadov isə aldığı güllə yarasından DİN-in hospitalında vəfat etmişdi.

Belə ağır zamanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev vətəndaş qarşıdurmasına səbəb ola biləcək hadisənin qarşısını aldı və ölkədə davam edən hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoydu. Həmin hadisələr, bir daha göstərdi ki, Azərbaycan xalqı və onun ordusu ölkə daxilində qarşıdurma yaratmaq istəyənləri dəstəkləmir və onları müdafiə etmir. 1995-ci il martın 13-17-də xüsusi təyinatlı polis dəstəsinin və onların havadarlarının hakimiyyəti ələ keçirmək məqsədi ilə sui-qəsd düzəltməsi 1994-cü il 2-4 oktyabr hadisələrinin əvvəlcədən düşünülmüş davamı və dövlət çevrilişinə cəhd kimi qiymətləndirildi. Ulu Öndər deyirdi:" Azərbaycanda bu ağır vəziyyətdən istifadə edərək öz şəxsi mənafelərini güdən adamları xəbərdar edirəm: onlar heç nəyə nail ola bilməyəcəklər. Cəmiyyət, xalqımızın milli birliyi, vətəndaş birliyi onların hamısını yolumuzun üstündən kənara atacaqdır. Qoy buna heç kəsin şəkk-şübhəsi olmasın. Ancaq belə ünsürlər indi Azərbaycanda iqtisadiyyatın ağır vəziyyətdə olmasından istifadə edərək qarmaqarışıqlıq yaratmaq istəyirlər." Belə də oldu. Ulu Öndər Heydər Əliyevin dövlət çevrilişlərinin qarşısını qətiyyətlə alması Azərbaycan xalqının sabaha, gələcəyə ümidini daha da artırdı. Ulu Öndər Heydər Əliyev düşmənlərimiz tərəfindən təşkil olunmuş dövlət çevrilişi cəhdlərinin qarşısını almaqla Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi.

Bu hadisələrdən keçən 27 ildə Azərbaycan müstəqil dövlət kimi daha da inkişaf etdi, əlaqələri genişləndi və mövqeləri möhkəmləndi. Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyindəki zəngin təcrübəsi, xalqına, Vətəninə, millətinə olan sonsuz məhəbbəti, qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik qorunub saxlanıldı.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasəti müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır, dövlətimiz durmadan yüksəlir, inkişaf edir və yeni uğurlar qazanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Başlanır? - Rusiyada süd qabları tükənir...



Rusiya süd məhsulları istehsalçıları idxal materiallarından hazırlanan qablaşdırma ilə bağlı problemlər səbəbindən tədarükdə mümkün fasilələr barədə xəbərdarlıq ediblər. SİA bu barədə "ren.tv" saytına istinad edir. Bildirilir ki, artıq problemlə bağlı Sənaye və Ticarət Nazirliyinə xəbərdarlıq ediblər. Plastik Emalçılar İttifaqı da bu vəziyyətdən xəbərdardır.

Onlar bildiriblər ki, aseptik qablaşdırma süd və şirələr üçün istifadə olunur. Məhsul və konteyner ayrıca sterilizasiya edilir, bundan sonra içki steril şəraitdə qablara tökülür və möhürlənir. Bu da, məhsulun xüsusiyyətlərini uzun müddət saxlamağa imkan verir.

Rusiyada belə qablar iki fabrik - "Tetra Pak" və "Elopak" tərəfindən istehsal olunur. Onun istehsalı üçün materiallar isə ölkəyə gətirilir. Mənbə onu da bildirib ki, "Elopak" ötən həftə fəaliyyətini dayandırıb deyə, bu səbəbdən bazarda konteyner çatışmazlığı yaranıb.

***Əli Babayev***

***Ötən həftə Azərbaycanla İran İslam Respublikası arasında imzalanan və Naxçıvan Muxtar Respublikasının blokadasının yarılmasına xidmət edəcək Memorandum Naxçıvanın dününü, bu gününü və ümumiyyətlə son 30 ilini gözlər önünə gətirdi. 1988-1993-cü illərdə Ermənistan Azərbaycana qarşı tamah dişini qıcayanda və bir-birinin ardınca torpaqlarımızı işğal edəndə Naxçıvan üçün də olmazın çətinlikləri yarandı. Yəni bu çətinliklər öz-özünə yaranmırdı, ermənilər tərəfindən yaradılırdı. Çünki Naxçıvanın işğalı da düşmənin baş planında əsas yer alırdı.***

# Zəngəzur dəhlizi Naxçıvanın blokadasını yarır və ya zəfər + zəfər!

TƏHLİL

Başlanğıc olaraq artıq 1988-89-cu illərdə Bakı-Naxçıvan qatarlarına qarşı hər gün yeni-yeni hücumlar törədilirdi. Qatarlar əvvəlcə daş yağışına tutulur, daha sonra isə gülləbaran edilirdi. Vaqonlar, pəncərələri deşik-deşik idi, sınmış pəncərələrin yerinə nazik taxta lövhələr vurulmuşdu. Maşinistlər iki gündən bir döyülüb, təhqir edilirdi. Sərnişinlərin taleyi təhlükə altında idi və bu, ozamankı Azərbaycan rəhbərliyini əsala narahat etmirdi. Lakin naxçıvanlılar yenə də qatarlardan istifadə etmək məcburiyyətində idilər. Çünki paytaxt Bakıya bu nəqliyyat vasitəsi ilə gedib-gəlmək ucuz başa gəlirdi və odövrkü iqtisadiyyatı tənəzzülə



uğramış ölkənin unudulmuş regionu olan Naxçıvanın əhalisi çox kasıb vəziyyətdə yaşadığı üçün həyatları təhlükə altında olsa da, bu nəqliyyatdan istifadə edirdilər.

Ermənistan Naxçıvana gələn elektrik enerjisini mütəmadi kəsir, qaz kəmərini partladırdılar. Nəticədə isə bu yerin əhalisi həftələrlə, aylarla işıqsız, qazsız qalır, qış aylarında Naxçıvanın sərt kontinental iqlimində soyuqdan donurdular. Elektrik enerjisinin kəsilməsi zavod, fabriklərin fəaliyyətinin dayanmasına, iş yerlərinin bağlanmasına, əhalinin aclıq, səfalətlə üzləşməsinə, xüsusilə isə informasiya blokadasına salınmasına səbəb olmuşdu. Əhali ölkədə olan hadisələrdən bixəbər yaşayırdı. Prezident İlham Əliyev həmin günləri belə xatırlayır:"Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni biz o günləri yaxşı xatırlayırıq.

## Naxçıvan blokadası və Ulu Öndər Heydər Əliyev

Ozamankı Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibətini də xatırlatsaq, muxtar respublikanın son dərəcə acınacaqlı durumu göz önünə gəlir. Belə bir vaxtda ulu öndər Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrildi, hamı onun timsalında böyük xilaskarını tapdı. 22 iyul 1990-cı il tariximizə böyük bir mərhələnin başlanğıcı, eyni zamanda naxçıvanlıların xilası tarixi kimi daxil oldu. On minlərlə insan muxtar respublikanın şəhər, qəsəbə və kəndlərindən axın-axın Naxçıvan şəhərinə, ulu öndərin ziyarətinə gəlir, ona tükənməz sevgisini bildirirdi. Elə həmin gün Naxçıvan şəhərinin mərkəzi meydanında keçirilən möhtəşəm mitinq də yüz minə yaxın insanın iştirakı da dahi rəhbərə xalqın sonsuz məhəbbət və inamının təntənəsi idi. Təklənmiş bir adaya bənzəyən Naxçıvan görkəmli şəxsiyyətin gəlişi ilə nicat yoluna çıxdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyir: Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən - 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə - Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu.





İllər ötdükcə blokada Naxçıvanı düşmənə meydan oxudu. Məhv olmaması, yaşaması ilə onların gözdağına çevrildi. Blokada Naxçıvanı informasiya blokadasını yarıb səsini dünyaya yaydı. Mənsub olduğu ölkənin rəhbərliyinin cəsarət edib toxuna bilmədiyi məsələlərə toxundu. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərar imzalandı. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı.Azərbaycanın müstəqilliyinə gedən yol Naxçıvandan başlandı. Bu yolun bələdçisi isə ulu öndərimiz Heydər Əliyev idi. 1991-ci ildə qazandığımız və 1920-ci ildəki kimi itirilmək təhlükəsi qarşısında olan müstəqilliyimiz məhz ümummilli liderimizin sayəsində xalqa bəxş olundu.Ulu öndər Heydər Əliyevin blokada Naxçıvanında yaşadığı, fəaliyyət göstərdiyi dövr iki illədək olsa da, Azərbaycan tarixinin böyük bir hissəsini əhatə edir. Böyük şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarındakı çıxışlarını, Naxçıvana gələn qonaqlarla söhbətlərini, ayrı-ayrı sahələrdəki vəziyyətlə bağlı fikirlərini, müsahibələrini oxuduqca çox məqamlar açıqlanır.

**Qarabağla yaşıd olan Naxçıvan blokadasının da 30 illik düyünü açılmaqdadır. Qarabağ torpaqlarının işğalı ilə başlanan Naxçıvan blokadası torpaqların azad olunması ilə də aradan qaldırılır.**





Bunlardan birincisi, ulu öndərə baxmayaraq ki, Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi vaxtlar da ölkə rəhbərliyi tərəfindən təzyiqlər var idi, lakin onun Azərbaycan rəhbərliyinə həmişə böyük hörmət hissi ilə yanaşması dahi şəxsiyyətin böyük idarəçilik qabiliyyətinin, insanlığının, alicənablığının nəticəsi idi. İkincisi, ulu öndərin qonaqlara, xarici ölkələrdən gələn nümayəndələrə Naxçıvanın Azərbaycanın qədim ərazisi olduğunu tarixi faktlarla izahının şahidi olursan. Üçüncüsü, onun ölkədəki, eləcə də muxtar respublikadakı ictimai-siyasi hadisələrin siyasi təhlilinin və təcavüzkar Ermənistanın, onun havadarlarının uzaq gələcəyə hazırlanmış planlarını nə qədər dəqiqiliklə analiz etdiyini görürsən. Ümumilikdə isə ulu öndərin hər bir çıxışı, söhbəti bu günün bir tarix dərsidir ki, gələcək nəslin Naxçıvan blokadası haqqında məlumat almaları üçün bundan güclü ikinci bir mənbə yoxdur.

## 100 yaşlı "Şərq qapısı" qəzetinin səhifələri Naxçıvan blokadasının canlı şahididir

Muxtar respublika 30 ildən artıqdır ki, blokada şəraitində yaşayır. Naxçıvanda nəşr olunan "Şərq qapısı" qəzetinin səhifələri blokada Naxçıvanının canlı şahididir. Blokadanın ilk illəri insanların tək ümidi "Şərq qapısı" qəzeti idi. Gündəlik çıxan bu qəzet muxtar respublikanın rayonlarına vaxtında çatdırıla bilmirdi. Yanacaq qıt olduğuna görə nəqliyyat işləmirdi. "Şərq qapısı" Naxçıvanda, onun sərhədlərində, dəmiryolunda, həmçinin digər sahələrdə olan hadisələrdən bəhs edən çoxsaylı yazıları dərc edən, Naxçıvana qarşı erməni təxribatlarını tam təfsilatı ilə ortaya qoyan, sakinlərə informasiya verən yeganə mətbu orqan, insanların əlinin çatdığı, oxuya bildiyi, məlumat aldığı yeganə mənbə idi.1988-ci ildən başlayaraq qəzetin nömrələrini səhifələyərkən blokadanın ilk illərinin ağırlığı, aclıq-səfaləti hopmuş bu səhifələr sanki dil açıb danışır. Danışdıqca da tarixi ədalətsizliyin, hadisələrin necə düşünülüb həyata keçirildiyindən söhbət açır."Kommunist" qəzetininin müxbiri Piri Məmmədovun "Şərq qapısı" qəzetinin 20 fevral 1990-cı il tarixli sayında dərc olunan "Həyat yolu: Bu yerlərdə qatarlar nə şərqdən qərbə gedir, nə də qərbdən şərqə..." adlı yazıda neçə-neçə müəssisələrə, insanlara üz tutulur, müsahibələr alınır, təhlillər aparılır. Yazının sonunda müəllif belə yazır: ...Coğrafiyada hər şey Qrinviçdən ölçüldüyü kimi, bu yerlərin də bütün məsafələri dəmir yolu ilə müəyyən edilir. Dəmir yolu muxtar respublika üçün hər şeydir. İqtisadiyyatından tutmuş siyasi, sosial və mənəvi həyatınadək hamısı onun ahəngdar işləməsindən asılıdır. Dəmir yolu-respublikanın həyat yoludur. Onsuz əslində Naxçıvan da yoxdur. Bu mənada dəmir yolu nəyin hesabına olur-olsun işləməli, qatarlar gecə-gündüz qərbdən şərqə, şərqdən qərbə getməlidir. Kimin kimdə acığı, hayıfı varsa, qisas almaq istəyirsə, qoy başqa yol seçsin, muxtar respublikanın, onun 300 minlik əhalisinin həyat yoluna toxunmasın. Əks təqdirdə daha böyük bəlalar, daha dəhşətli faciələr nəsibimiz olar...

Digər maraqlı və ədalətli yazıya nəzər salaq. Qəzetin 21 fevral 1990-cı il tarixli nömrəsində "Oqonyok" jurnalının icmalçısı Georgi Rojnev "Nəhayətsiz yol" məqaləsində yazır: Azərbaycan torpağında kiminlə görüşdümsə hər bir müsahibim özünün açıq inamsızlığını gizlətmirdi: "Əgər felən bütün mərkəzi qəzetlər və jurnallar, radio və televiziya bizi narahat edən problemlər barədə susur, ya utanmadan yalan danışırlarsa, sizin səfərinizin nə faydası!". Heç bir gün keçməmişdi, mən inandım ki, adamlar haqlıdırlar. Həlli yubanmış millətlərarası münaqişələrdə nə baş veririsə versin, oxucuya və dinləyiciyə eyni şaiyələr təqdim olunurdu: "Azərbaycan az qala qəddar təcavüzkardır, onun qonşuları isə günahsız qurbanlardır".Öz vədimdə mən kələk gəlmirdim. Moskvaya qayıdıb mütləq həqiqəti danışacaqdım. Bəs sonra? İki aydan çox keçsə də, mən Azərbaycana və Ermənistana səfər barədə bircə sətir də çap etdirməmişəm. Heç bir Moskva qəzeti, heş bir jurnal mənə öz səhifələrində yer vermək istəmir.İzahı sadədir: mənim danışdığım həqiqət aylardan bəri oxucuların və dinləyicilərin beyninə yeridənlərə qətiyyən bənzəmir."Şərq qapısı"nın səhifələrində "Qatar gəlir, qatar gedir", "Sərhəddəki alov nəyi işıqlandırdı", "Çörək növbəsi", "Şəhərə... çörək dalınca", Həqiqətlər və müəmmalar, "Sədərək hadisələri", "90-ların acısı: Bacı toyu qardaş yasına döndü" kimi yüzlərlə yazılarda Naxçıvan blokadasının çətinliklərindən, Sədərəkdə və muxtar respublikanın Ermənistanla sərhəd digər rayonlarında törətdikləri münaqişələrdən, Naxçıvanın son dərəcə çətin bir şəraitdə yaşamasından, iqtisadiyyatının dağılaraq tamamilə iflic vəziyyətinə düşməsindən, əhalinin maddi durumunun son dərəcə çətinləşməsindən söhbət açılır.Yüz il sonra da "Şərq qapısı" qəzeti Naxçıvan blokadasının ağır günlərini, daha sonrakı illərdə isə blokada şəraitində intibah dövrünü səhifələrində yaşadan mənbə kimi istinadgahımız olacaqdır.

## Naxçıvan inkişafın yüksək mərhələsindədir

Dövlətimizin başçısı cənab İlham Əliyev deyir: "Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu - abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sualverirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir".

Son 20 ildən artıq bir dövrdə blokada şəraitində insan ağlına sığmayan dəyişikliklər baş verib Naxçıvanda. O dəyişikliklər ki, Naxçıvana ötən dövrdə yolu düşənlərin heyrətinə səbəb olub, xarici mətbuat səhifələrində jurnalistlərin təəssürat mövzularına, səliqə-sahmanı, təmizliyi ilə nümunə olaraq göstərilən diyara çevrilib. Naxçıvan indi bura gələnlərin ötənlərlə bu günü, özününkü ilə buranı müqayisəetmə məqamındadır. Naxçıvan bu gün dünyanın ən inkişaf etmiş regionları sırasındadır. Lakin bir fərq var: Naxçıvan bu intibaha blokada şəraitində nail olub. Deməli, məqsəd və prinsip olan yerdə blokada belə, əngəl yarada bilmirmiş.Ötən illərin ən yüksək göstəriciləri Naxçıvanın elektrik enerjisi və təbii qazla fasiləsiz təminatı, informasiya blokadasının tamamilə aradan qaldırılması, Naxçıvanın ölkə ilə həm quru, həm də hava yolu nəqliyyatının bərpa edilməsidir. Prezident İlham Əliyevin dediyi kimi:"... Bu gün elektrik enerjisi ilə bağlı bütün problemlər həll olunub. Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik stansiyası işə düşəndən sonra Naxçıvan Muxtar Respublikası öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabınatəmin edəcək. Bu, dünya miqyasında bəlkə də yeganə belə bir hal olacaqdır ".

## Qarabağ işğalı ilə yaşıd Naxçıvan blokadası Doqquzuncu bənd - nəqliyyat damarı

Biz 30 ilin torpaq həsrətliləri, həm də 30 ilin blokada Naxçıvanının insanları idik. 1990-cı illərin alın yazısına çevrilən bu iki acının da düyünü çözülüb artıq. Ölkə Prezidentinin həm hərb meydanında, həm siyasi müstəvidə bütün dünyaya nəyə qadir olduğumuzu göstərməsi ilə, dəmir yumruq ətrafında birləşməyimizlə, övladımızı itirib "Vətən sağ olsun!" deməyimizlə, dağılan, viranə qalan evlərimizə alın belə qırışdırmamağımızla, uçuq-söküklər altından yalnız bayrağımızı xilas edib köksümüzə sıxmağımızla bütün dünyaya milli mənliyin, torpaq sevgisinin nə olduğunu bəyan etdik. İndi illərlə acılarımıza susan dünya ölkələrinə həm hərbimizlə, həm də mənəvi dəyərlərimizlə örnəyik.

Qarabağla yaşıd olan Naxçıvan blokadasının da 30 illik düyünü açılmaqdadır. Qarabağ torpaqlarının işğalı ilə başlanan Naxçıvan blokadası torpaqların azad olunması ilə də aradan qaldırılır. Artıq Naxçıvan da Qarabağ torpaqları kimi, həsrət qaldığı anası Azərbaycanın qoynuna sığına biləcək, həsrəti sona yetəcək. Buna düşünülmüş siyasətin bəhrəsi olan 10 noyabr Bəyanatı ilə nail oluruq. Ölkə Prezidentinin xalqımıza müraciətindən: "Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinintəşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində Bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yəni nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda, ikinci məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası - bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni bu nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir".

## Zəngəzur dəhlizi Naxçıvanın blokadasını yarır və ya zəfər + zəfər

2020-ci ilin payızında, 44-cü gündə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə İkinci Vətən müharibəsi qələbə ilə nəticələndi. 10 noyabrda Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladıqları Bəyanat isə ondan bir gün öncəki qələbənin üzərinə bir qələbə də əlavə etdi. Ermənistan kapitulyasiya aktını imzalamaqla təslim olduğunu bildirdi. Beləliklə Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz, itkisiz Azərbaycana qaytarıldı. Bəyanatın 9-cu bəndi isə Naxçıvanın blokadadan çıxması üçün cənab İlham Əliyevin təkidi bir maddə olaraq sənədə salındı. Bunun üçün xeyli vaxtdır ki, tədbirlər görülür. Elə bu işlərin davamı olaraq ötən həftə Azərbaycan Hökuməti ilə İran Hökuməti arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması Qarabağ zəfərinin üzərinə yeni bir zəfər əlavə etdi. Bu həm də Azərbaycan Prezidentinin növbəti diplomatik qələbəsidir. Memorandum qonşu İranla əməkdaşlığın təzahürü olmaqla yanaşı, həm də regonun inkişafı üçün əhəmiyyətlidir. Həm nəqliyyat, həm də elektrik enerjisi üçün nəzərdə tutulmuş bu dəhlizdən Ermənistan kənarda qaldı. Ağılsızlıqları ucbatından həmişə geridə qalan işğalçı dövlət kimlərinsə dəstəyi olmadan var olmadıqlarını bir daha sübut etdi. Sözsüz ki, yaxın gələcəkdə bu dəhlizdən istifadə üçün yalvarışlarının da şahidi olacağıq.

Hələlik isə bu, bir reallıqdır ki, Zəngəzur dəhlizi Naxçıvan blokadasını yaracaqdır. İllərlə bu blokadanın yarılmaması üçün canla-başla çalışan ermənilərin əllərindən gələni etmələrinə rəğmən. Zəfər üstəgəl zəfər bu gün dövlətimizin prioritetidir. Hələ qarşıda neçə-neçə zəfərlər bizi gözləyir...

***Mətanət MƏMMƏDOVA***

# Novruz - işıq, inam və mənəviyyat bayramıdır

***Novruz bayramı hər şeydən əvvəl inam bayramıdır. Təbiətə, suya, işığa, gözəlliyə inam! İnam isə insan mənəviyyatının ən ali keyfiyyətlərindən biridir. Hər hansı bir işə inamla başlasan qələbə təmin olunacaq. İnam mənəviyyatın zirvəsidir. Ailəyə inam! Dosta inam! Dövlətə inam, rəhbərə inam! Bu gün Qarabağda başlanan möhtəşəm quruculuq işlərinin gələcəyinə inam! Ulu öndər yazırdı: "İnsan mənəviyyat üçün yaşamalıdır" və tamamilə haqlı idi.***

Dövlət başçısı da öz növbəsində, ən ağır zamanlarda belə, insanları haqqın qələbəsinə inandırmağı bacarmalıdır. Bunun üçün əvvəlcə başladığı bir işin uğurlu sonluğuna özü inanmalıdır. Ümummilli liderimiz Heydər Əliyev bütün dəyərlər içərisində ən böyük üstünlüyü insanların inamına verirdi. Qarabağın ən ağır günlərində, qarətçilər şəhərlərimizi, kəndlərimizi talan edəndə, meşələrimizi amansızcasına doğrayıb sinəmizə dağ çəkəndə - 1998-ci il "Azərbaycan" qəzetinin 24 mart tarixli sayında inamla yazırdı: "Gün o gün olacaq ki, ki,Novruz bayranmını bir dəfə Şuşada,o biri il laçında.o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaq. Mən buna inanıram və bu inamla yaşayıram. Bu inamla istəyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm". Onun bu inamı özündən sonrakı nəslə də keçdi və qələbələrimizin əsası oldu.

Azərbaycan respublikasının prezidenti,Ali Baş Komandan İlham Əliyev elə həmin inamla 44 günlük müharibədə misli görünməmiş qələbə qazandı.Xarakterindəki möhkəmlik,fəaliyyətindəki ardıcıllıq ,qəhrəmanlara layiq olan dönməzlik ona "Dəmir yumruq" ləqəbi qazandırdı.Müharibə qurtarsa da xalq onu yenə də "Dəmir yumruq" adlandırır. İndi biz "Dəmir Yumruq" deyəndə "Dəmir Xarakter", "Dəmir əqidə", "Yenilməz rəhbər" kimi mənalarını anlayırıq. Dünyamızın yuxusunu qarışdırdığı, Rusiya-Ukrayna müharibəsinin davam etdiyi bu günlərdə, Azərbaycanı bütün təhlukələrdən məharətlə qoruyan ölkə başçısını yalnız bu mənaları daşıyan, hamımızın fəxrlə dediyimiz "Dəmir yumruq" kimi ifadə etməyimiz çox təbiidir.

Azərbaycan Respublikasının Prezidenti, Cənab Ali Baş Komandan İlham Əliyev və vitse Prezidentimiz Mehriban xanım Əliyeva xalqla birlikdə Novruz bayramının görüşünə layiqli hədiyyələrlə gəlirlər,Qarabağ torpağında müasir dünyanı heyrətə gətirən şəhərlər, kəndlər, istehsalat müəssisələri,yaraşıqlı otellər,insanların ruhunu oxşayan parklar,istirahət mərkəzləri,məktəblər,uşaq bağçaları yaratmaq arzularını inamla həyata keçirməyə başlamışlar.Xalqın ən istedadlı insanlarını bu işə səfərbər etmişlər. Böyük quruculuq işlərinə başlanmışdır,Dağların altından tunellər çəkilmiş, Füzulidə Beynəlxalq hava limanı tikilmişdir.Hətta ən tənbəl adamlar belə qeyrətə gəlmişdir.Qurmaq,yaratmaq ehtirası ürəkləri fəth etmişdir."Dəmir yumruğ"un iradəsi ilə ,dünənki "xəstə" yolların yerində gözəl asfalt magistrallar çəkilmişdir və bu iş inaml davam etdirilir.

Ağlamadı,sızlamadı
Yollar elə mərd sağaldı.
44 günlük qələbəylə
30 illik dərd sağaldı.
Qarabağda yoxa çıxıb
Oğru yolu,qaçaq yolu.
Biz oraya çəkdiririk.
Dəmir yolu, uçaq yolu.
Kəsir qırmızı lentləri,
Fəxrlə süzür yolları.
Salınan hər magistral
"Dəmir yumruğun"qolları.
Dağın içindən yol açmaq
İti ağıllardan gəlir.
Maşınlar çıxır tuneldən
Sanki nağıllardan gəlir.
Yollar göylərə dırmaşır
Uçaqların qanadında.
Təzə bir dünya qurmağa
"Dəmir yumruq" inadında

Bütün diqqət Şuşaya yönəlib. Nədənsə hamı əvvəlcə Şuşanın bərpasını istəyir. Amma yəqin az adam bilir ki, Şuşanın, Füzulinin, Ağdamın, Cəbrayılın, Qubadlının, Zəngilanın, Kəlbəcərin, Laçının,Tərtərin, Ağdərənin, Xankəndinin təkcə köhnə siması qayıtmayacaq, o şəhərlərdə və kəndlərdə elə möcüzələr yaradılacaq ki, hamını heyran qoyacaq:Ağıllı kəndlər tikiləcək,müasir dünyanın tələb etdiyi istehsalat müəssisılıri açılacaq.

Təsadüfi deyil ki, qələbədən dərhal sora ölkənin başçıları - İlham Əliyev və Mehriban xanım Əliyeva tez-tez Qarabağa səfər etməyə başladılar. Maşının sükanı arxasında ölkə prezidentinin əyləşməsi onu göstərirdi ki, o, Qarabağın yollarını doğma bir duyğu kimi hiss etmək istəyir. Amma yollar narahat, ətraf xarabazara çevrilmişdi. Ali Baş Komandan pəncərədən tarmar olmuş yerləri göstərib deyirdi:

Dünyanın ən dəhşətli müharibələrində də belə vəhşiliklər görünməyib. Görün şəhəri nə günə salıblar. Eləbil çəyirtgə sürüsü zəminin bütün məhsulunu məhv edib. Bir bax, torpağın altını, üstünə ceviriblər.

Mehriban xanım onun göstərdiyi yerləri heyrətlə seyr edir,düşmənin nə qədər ləyaqətsiz olduğunu görürdü. Onun qucağında ağ parçaya bükülmüş Müqəddəs "Quran" var idi. Onlar Qarabağa Allah kəlamı, təmizlik, ləyaqət, ən başlıcası isə inam aparırdılar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev yaxşı bilir ki, 44 günlük müharibəni zəfərlə başa vurmaq hələ işin yarısıdır. Müharibə Qarabağın gözəlliyini məhv etmişdi. Qarətçilər təkcə onun var yoxunu talamamışdılar, daşını, meşəsini, evlərini daşıyıb aparmışdılar. Qarabağ torpağı başdan başa xarabalığa cevrilmişdi. İnsanların ürəyinə dağ çəkən bu xarabalıqları yenidən cənnətə çevirmək lazım idi. Ali Baş Komandanın qərarı qəti idi. "Dəmir yumruq" yenə də öz əzəməti ilə havaya qalxdı. Ali Baş Komandanın hamını səfərbər edən qüdrətli səsi səhər günəşinin həyatverici şüaları kimi ətrafa yayıldı. Bu səs çox əzəmətli idi.Qoca şair onu belə vəsf elədi.

"Dəmir yumruğun" səsində
Tükənməyən bir sevgi var
İnsanı göyə qaldıran
Qəhrəmanlıq ahəngi var
Hər gün bir zəfər qazanır,
Dayanmır,bir daha gedir.
Bu torpaqda bütün yollar
Bir xoşbəxt sabaha gedir.
Dəmir yumruğun səsində
Günəş gülür,dan sökülür
Onun ılıq nəfəsindən
Dünyaya sevgi tökülür.
"Dəmir yumruğun" səsində
Qalxıb ucalmaq eşqi var
Yaratdığı əsərlərdən
Cönüb, güc almaq eşqi var
Haqqı nahaqdan qoruyur
Çox ölkədən gəlir səsi.
"Dəmir yumruğun" məntiqi
Allahın bir möcüzəsi!
Qoy danışsın Baş Komandan
Hər sözü yanan işıqdı
Mərd gülüşü,mərd yerişi,
Bu dünyaya yaraşıqdı.
O danışır ,sözlərindən
Nur tökülür sətir- sətir
Onun nitqi ilk bahardı
Günəş çıxır,çiçək bitir.
Düşmənlərim yuxusunu
Gecə-gündüz o, qaçırır.
Namərdlərin sifətinə
Bir güllə kimi açılır.
"Dəmir yumruğun" nərəsi
Sülh istəyən ən güclü səs:
-Deyin,hardan yaranıbdı
Vurub dağıtmağa həvəs?
Qoyun bulaqlar çağlasın
Kəsin hərbin nəfəsini
Qoymayın insan ağlasın
Batırın tank nərəsi



**YAP Veteranlar Şurasının üzvü, Filologiya elmləri doktoru, professor Zahid Xəlil**

Bu səsdə Novruz bayramının insanlara verdiyi xoş duyğular,Təzə cücərib qalxan çəmənliklərin ürəklərə gətirdiyi rayihə,yaşıllıqların içində qırmızı qanadlarını cırpa-cırpa insanları sevib- sevilməyə çağıran qızıl lalələrin inamlı sevgisi var.Bu səsdə xalqı səfərbər etməyə ,gələcək uğrunda mübarizə aparmağa birləşdirən qüdrət var. Bu səs bir də ona görə güclüdür ki,Möhtərəm prezidentimizin ləyaqətli ömü yoldaşı,Azərbaycan Respublikasının Birinci Vitse Prezidenti Mehriban xanım Əliyeva onun başladığı idealları uğurla tamamlayan dünya miqyaslı işlər görür,milli dəyərlərimizin qorunması naminə beyhəlxalq məclislərdə təmsil etdiyi millətin dəyərlərini qoruyur.

Aslanın erkəyi, dişisi olmaz "deyimini bütün fəaliyyəti ilə sübut edən Azərbaycan Respublikasının vitse Prezidenti, Heydər Əliyev fondunun prezidenti UNESCO VƏ İSESCO -nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük səyi nəticəsində 28 sentyabr-2 oktyabr 2009-cu ildə Birləşmiş Ərəb Əmirliklərinin Abu Dabi şəhərində novruz bayramı UNESCO tərəfindən Qeyri Maddi Mədəni İrs üzrə Reprezentatıv siyahısına daxil edildi.

Sovet dönəmində qorxa-qorxa qeyd etdiyi Novruzu indi xalq dövlətin qayğısı ilə yüksək səviyyədə bayram edir. Novruz inancı cox qədim tarixə malikdir O.bəşəriyyətin ən qədim mənəvi dəyərlərindəndir. İnsan yarandığı gündən - Günəşin həyatverici qüdrətini hiss etdiyi andan bu səma cisminin insanı qızdırmağa başladığı günləri bayram etməyə başlayıb O həmin günlərdə əkin-biçin işlərinin məqamını hiss edib.Azuqəsi üçün təməl işlərini görməyə başladığı həmin günlərinə inam bəsləyib, onu bayrama çevirib Həmin günlərdə insan coşğun hisslər yaşayır,küsülü olduğu insanla barışır,Qohumlarını ziyarət edir,məclis qurur,xoşbəxtlik duyğuları keçirir." Novruz bayramının bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki,qədim zamanlardan bu bayramda insanlar kin- küdurəti unudur,küsülülər barışır,,ziddiyyətlər aradan götürülür. Demək bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır. (H.Əliyev)

Novruz bayramı səmimiyyət yaradan xarakteri ilə siyasətə də təsit etmişdir.Bu bayram münasibəti ilə dövlət başçısını təbrik edən xarici diplomatlarla daim dostluq əlaqələri yaradan Möhtərəm Prezidentimiz İlham Əliyev bu fürsətlərdən də məharətlə yararlanır,özlərini ölkəmizdə yad hesab edən və ya ,bu ölkədə siyasi durumunu tam müəyyənləşdirməkdə çətinlik çəkənlər də Novruz bayramının xeyirxah xarakteri ilə onları ölkəmizin dostuna çevirməyi bacarır.O yaxşı bilir ki, Azərbaycanın dostu cox olmalıdır.

Novruz həm də işıq bayramıdır. Onun retuallarında "Gün çıx, gün çıx, kəhər atı min, çıx" kimi günəşi çağıran, əslində işığın Novruzun vacib elementi olduğunu təsdiq edir. Kücələrdə tonqalların,evlərdə şamların yandırılması da gündüz yanan işıqların ömrünü uzatmaq istəyi ilə bağlıdır.Hec təsadüfi deyil ki Qarabağda elektrik stansiyasının tikilişi ilə bağlı görülən işlər də məhz bu Novruz günlərinə təsadüf edir.

Ətrafına yaxşı bax!
Gül qönçəsi işıqdı
Dünyaya ilk göz açan
Körpə səsi işıqaı.
Coxdu işıqlarımız
Qartal:-Ucan işıqdı
Ceyran:-Qacan işıqdı.
Günəş:-Qucan işıqdı.
İşıq var- ildırımdı
Təlatümlər qoparır.
İşıq var ki, milləti
Arxasınca aparır.
Gəl işıqdan danışaq
Könlüm işıq soraqlar.
Baş Komandan işıqdı-
Ətrafında çıraqlar.
Yaxşı saxla yadında
Bu ürək sözlərimi.
O işıq kor elədi
Düşmənin gözlərini.
44 günlük döyüşün
Zəfər səsi işıqdı!
Ali Baş komandanın
Qələbəsi işıqdı.
Əzəmətli yerişi,
Yürüşü də işıqdı
Millətin qarşısında
Duruşu də işıqdı.
O parlayır günəştək
Vətənin qucağında.
Bərəkətə cevrilib
Hər kəsin ocağında.
Işıq,inam və mənəviyyat bayramınız mübarək olsun !

# BDU-da ilaxır çərşənbə belə qeyd edildi

***Bakı Dövlət Universitetinin həyətində İlaxır çərşənbəsi qeyd olunub. Havanın soyuq olmasına baxmayaraq universitetin müəllim və tələbə heyəti bayram tədbirinə böyük coşqu ilə qatılıblar.***

Tədbirdə universitetin rektoru Elçin Babayev, fakültə dekanları, dekan müavinləri, müəllim heyəti və tələbələr iştirak edib. SİA olaraq BDU kollektivinin fikirlərini öyrəndik.

Universitetin həyətində möhtəşəm Novruz tonqalı alovlandırılıb, tələbələr tonqal ətrafında dövrə vuraraq "yallı" rəqsini ifa ediblər və maraqlı tədbir proqramı baş tutub.

Həmçinin, universitetin rektoru Elçin Babayev, Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu, həmin fakültənin dekan müavini Samir Xalidoğlu və Bakı Dövlət Universiteti Həmkarlar İttifaqı Komitəsinin sədri Hacıbaba Məmmədov da SİA-ya tədbirlə bağlı müsbət fikirlərini bildirdilər.







**Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev:** "Novruz bayramı haqqında xüsusilə fikir bildirmək lazımdır. Pandemiya dövründə Novruzu qeyd etməsək də bu bayram bizim daim ürəyimizdədir.

Novruz yeni gün, yeni nəfəs deməkdir. Maraqlısı da odur ki, Novruz təbiətin oyandığı vaxta təsadüf edir: "Biz maraqlı bir layihə etmək istəyirik. Təklif etdim ki, təqvim buraxaq. Bu təqvim 20 mart 2022 və 20 mart 2023 şəklində olsun. Hətta biz bunu bir neçə gün içində də edə bilərik.

Novruz bizim milli bayramımızdır və ona heç bir başqa çalar vermək lazım deyil. Novruz insanları biri-birinə yaxınlaşdıran, ünsiyyətə səsləyən, küsülüləri barışdıran bayramdır. Amma düşünmürəm ki, bizim kollektivdə kimsə küsülü ola bilər. Yenilənən universitetimizin Novruzu da fərqli olmalıdır. Bu gün tələbələrlə tonqal başına yığışdıq. Çox maraqlı keçdi. Düşünürəm ki, qarşıdakı illərdə bu bayramı daha mükəmməl edəcəyik və hətta festival kimi də edə bilərik.

Qeyd edim ki, biz fakültələr və inzibati şöbələr arasında müsabiqə keçiririk. Martın 18-də isə konsert proqramımız olacaq. Eyni zamanda Novruzla bağlı maraqlı sessiya keçiriləcək. Orada ən azı iki aspektdən müzakirə gedəcək. Çox maraqlı mövzular olacaq. Hətta biz özümüz də tələbələrdən geri qalmayaraq Novruz üçün maraqlı əl işləri hazırlayırıq".

**BDU Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu:** "Ümumiyyətlə, Bakı Dövlət Universitetində həmişə bu cür milli bayramlar geniş şəkildə qeyd edilir. Xüsusilə də Novruz bayramı özəl ab-hava ilə təşkil olunur. Bildiyiniz kimi pandemiya ilə bağlı iki il universitetimizdə Novruz bayramı qeyd edilmədi. Bu il isə müəyyən mənada karantin qaydalarının yumşaldılması açıq səma altında universitet rəhbərliyinin səyi ilə belə bir gözəl şənliyin ərsəyə gəlməsinə şərait yaratdı.

Bu cür şənliklər tələbələrin universitet həyatında dərin və xoş izlər buraxır. Şükür ki, xəstələyin mövcud vəziyyəti belə maraqlı tədbirləri keçirməyə bizə imkan verdi".



**BDU Jurnalistika fakültəsinin dekan müavini Samir Xalidoğlu:** "Novruz Azərbaycan xalqının ən əziz və özəl bayramlarından biridir. Bu bayramın kökü çox qədim tarixə söykənir. Tarixin ilk dönəmlərindən bu günümüzə qədər neçə-neçə nəsillərimiz Novruzu qeyd edib. Müəyyən zamanlarda onu qadağan etsələr də xalq yenə yadaşında yaşadıb və bizə ötürüb.

Bizim də bugünki əsas missiyamız bu bayramı gözəllikləri ilə yaşatmaq və sonrakı nəsillərə ötürməkdir.

Novruz təbiətin oyanışını simvolizə edir. Novruz yenilikdir, təmizlikdir, saflıqdır. Novruz ali duyğuları, gözəl keyfiyyətləri özündə ehtiva edən özəl gündür. Bayramınız mübarək!".



**BDU-nun Jurnalistika fakültəsinin müəllimi Güney Mahmudova:** "Novruz bayramı xalqımızın ən qədim bayramlarından biridir. Xalqımıza məxsus bütün adət-ənənələr bugünədək özünü Novruz bayramında göstərib.

Novruz sözünün mənası isə "yeni gün" deməkdir. Buna əsasən deyə bilərik ki, müsəlman aləmi üçün Novruz bayramında köhnə il yeni illə əvəz olunur. Bu bayram keçmiş dövrlərdən indiyə qədər gəlib çatmış adətləri özündə əks etdirir. Rayonlarımızda bu adət-ənənələr daha geniş şəkildə qeyd olunur. Papaq atmaq, qapıpusma kimi adətlər yerinə yetirirdik.

Eyni zamanda qızlar üzük falına baxardılar. Böyüklər həmişə bizə çərşənbələr bayram boyunca xoş sözlər söyləməyi tapşırırdılar. Çünki qonşu, qohum-əqrəba qapı pusmaq üçün gələrdilər.

Bugünkü gündə xüsusən şəhər yerlərində demək olar ki, qulaq pusma, papaq atma yoxdur. Amma bəzi tonqaldan tullanmaq, bayram şamı yandırmaq kimi adət-ənənələr hələ də müşahidə olunur. Əvvəllər şəkərbura, paxlava, badambura yemək üçün Novruzu səbirsizliklə gözləyərdik. İndi isə şirniyyat mağazaları çoxdur və sifariş edərək asanlıqla bu təamları əldə edə bilirik".



**BDU Bakı Dövlət Universiteti Həmkarlar İttifaqı Komitəsinin sədri Hacıbaba Mustafayev:** "Novruz Azərbaycan xalqı üçün ənənəvi bir bayramdır. Pandemiyadan sonra ilk dəfədir ki, universitetdə bayramı belə aktiv şəkildə qeyd edirik. Bu gün universitetin bütün fakültələrinin tələbələri burada iştirak etdi, birlikdə rəqs etdik, sosiallaşdıq.

Uzun müddətdir tələbələrə lazım olan sosiallaşma amili var idi ki, axır ki, ona çata bildilər. Bu gün hər birimiz üçün xoş xatirə oldu. Bütün gəncləri Novruz bayramı münasibəti ilə təbrik edirəm.

Onu da qeyd edim ki, Novruz adət-ənənələrini, milli mental dəyərləri yaşatmaq bizim öhdəliyimizdir və hər bir gənc bunu xatırlamalıdır".



**Tələbə Şəmsi Əlizadə:** "Mən BDU-nun Kimya fakültəsinin 4-cü kurs tələbəsiyəm. Artıq bu il məzun oluram. Bu bizim doğma universitetdə sonuncu tonqalımızdır. BDU xoş xatirələrlə daim yadda qalacaq. Başda rektorumuz olmaqla bütün kollektivi bayram münasibəti ilə səmimi qəlbdən təbrik edirəm".



**Tələbə Ləman İdrissoy :** "Novruz xalqımızın tarixini özündə əks etdirən milli və dəyərli bayramımızdır. Bu bayramı özündə zəngin adətləri birləşdirdiyi üçün çox bəyənirəm. Uzunmüddətli və sərtləşdirilmiş karantin qaydalarının yumşaldıldığı bir zamanda universitetimizdə təşkil olunan çərşənbə tonqalı çox yerinə düşdü.

Ümumiyyətlə, biz gənclərin istənilən mövzuda milli ruhda inkişaf etdirilməsi, bunun üçün müxtəlif tədbirlərin təşkil olunması çox gözəl haldır. Mən də bir çox tələbə yoldaşlarım da tonqalın ətrafında birliyimizin simvolu olan yallı ilə dövrə vurduq, oynadıq əyləndik. Ümid edirəm ki, növbəti bayram tonqalının ətrafına toplaşdığımızda pandemiya dünyamızı tamamiylə tərk etmiş olar".

**Tələbə Müjgan Vəzirova:** "Mən BDU jurnalistika fakültəsinin birinci kurs tələbəsiyəm. Bakı Dövlət Universitetində İlaxır çərşənbəsi qeyd olunur. Bu mənim üçün bir ilkdir. Çox gözəl təəssüratlarla yaddaşımda qaldı. Hətta pandemiyadan sonra belə bir addımın atılması sevindirici oldu. Bir daha bayramınız mübarək".

***Ayşən Vəli***

REPORTAJ

# Azərbaycan musiqisini zənginləşdirən böyük bəstəkar

*Dövlət başçısının Sərəncamı ilə simfonik muğam janrının banisi Fikrət Əmirovun 100 illik yubileyi qeyd olunacaq*



**Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdəndir. Belə ki, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı və gənc istedadların dəstəklənməsi, milli sənətin inkişafı və s. diqqətdə saxlanılır.**

Eyni zamanda, cəmiyyətin məlumatlandırılmasına yönəldilən və bununla da onun demokratikləşməsinə, dünya birliyinə inteqrasiya edilməsinə rəvac verən mədəniyyət ocaqlarının köklü şəkildə modernləşdirilməsi və yenidən qurulması istiqamətində ardıcıl tədbirlər görülür. Əlbəttə ki, mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir.

Müasir həyatımızda yaradıcı simaların, mədəniyyət və incəsənimizin görkəmli nümayəndələrinin fəxri ad və mükafatlara layiq görülməsi də təqdirəlayiqdir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlar ilə Azərbaycan mədəniyyəti və incəsənətinə töhfələr vermiş sənətkarların yubiley tədbirlərni keçirilməsi də bu sahəyə ayrılan diqqətin təzahürüdür. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Fikrət Əmirovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamı sənət xadimlərimizə ayrılan diqqətin daha bir nümunəsidir. Sərəncama əsasən, Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirovun 100 illik yubileyi ilə bağlı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə almaqla tədbirlər planı hazırlanıb həyata keçirəcək.

Görkəmli bəstəkar, tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Fikrət Məşədi Cəmil oğlu Əmirov rəngarəng yaradıcılıq palitrasına malik qüdrətli sənətkar kimi mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş etmişdir. O, neçə-neçə dəyərli opera, balet, simfoniya, mahnı, romans və kamera-instrumental əsərin müəllifidir. Fikrət Əmirov XX əsr Azərbaycan musiqisinin aparıcı simalarından biridir. Onun simfonik muğamları və "Nizami" simfoniyası dünyanın ən məşhur dirijorları G.Rojdestvenski (Rusiya), K.Abendrot (Almaniya), Ş.Münş (Fransa) və L. Stokolovskinin (ABŞ) idarəsi ilə ifa olunmuşdur. Bəstəkarın "Nizami" simfoniyası, doğma vətəni tərənnüm edən "Azərbaycan kapriççiosu", "Azərbaycan süitası" , "Azərbaycan qravürləri" yaradıcılığının dəyərli səhifələridir. Fikrət Əmirovun üslubuna xas lirik-romantik boyaların bütün əlvanlığı ilə öz əksini tapdığı bu müxtəlif janrlı sənət nümunələrində milli ruh, fəlsəfi-psixoloji dərinlik və melodik gözəllik hakimdir. Azərbaycan konsert janrının ilk nümunələrini də F.Əmirov yaratmışdır. Onun bir neçə konserti, xüsusən də fortepiano və orkestr üçün E.Nəzirova ilə birgə yazdığı "Ərəb mövzularında konsert"i Azərbaycan pianoçularının ən çox ifa etdiyi əsərlər sırasındadır.

F.Əmirovun özünəməxsus bəstəkarlıq dəst-xətti onun instrumental və kamera vokal əsərlərində də təzahür edir. "Fortepiano üçün 12 miniatür", müxtəlif pyeslər, "Ulduz", "Azərbaycan elləri", "Gülüm", "Gülərəm gülsən" və digər romans və mahnıları bu gün də tez-tez səhnələşdirilir. O, həmçinin dram tamaşalarına, "Böyük dayaq", "Mən ki gözəl deyildim" və digər filmlərə maraqlı musiqi bəstələmişdir.

Onun yüz illiyi UNESCO-nun 2022-2023-cü illər üzrə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramına daxil edilib. Bu Fikrət Əmirov sənətinə beynəlxalq miqyasda yüksək qiymət verilməsinin təzahürüdür. Fikrət Əmirovun vətənpərvərliyə səsləyən, daim mənəvi zənginlik aşılayan və bəşəri ideallar tərənnüm edən, nailiyyətlərlə zəngin irsi Azərbaycan musiqi sənəti salnaməsinin ən parlaq səhifələrindəndir.

*Zümrüd BAYRAMOVA*

# Novruz sülh, əmin-amanlıq bayramıdır

***Şərq xalqları içərisində yayılmış ən qədim tarixə malik olan bayramlardan biri Novruz bayramıdır. Xalqımız bu bayramı hər il mart ayının 20-21-də keçirir. Novruz dəyərləri sivilizasiyanın başlanğıc mərhələlərindən soraq verir. Keçmişə nəzər salaraq görürük ki, bu bayram tarixin dərinliklərinə getdikcə yeni məlumatlar üzə çıxır, onun haqqında zərdüştilikdən çox-çox əvvəlki çağlardan faktlar aşkarlanır, yeni mənbələr bayramın tarixini daha uzaq dövrlərə aparıb çıxarır.***



**Eldar Əsədov, YAP Tərtər rayon təşkilatının sədri**

Novruz Şərqin qədim yaz bayramlarından biri kimi xalqımızın təbiət hadisələri barədə əski görüşlərini, onun erkən əmək və məişət həyatını əks etdirməkdədir. Bunları təsdiq edən əsaslı və mühüm faktlar isə təbii ki, Azərbaycan xalqı içərisində bayrama məxsus adət və ənənələr, inanclar, dünyanın yaranışı və yüksəlişi ilə bağlı məlum dörd müqəddəs ünsür - Su, Od, Yel və Torpaqla bağlı etiqadlar, eləcə də bayram məcmuunun tam və pozulmaz qəlblərdə - yetkin formatda xalq içərisində yaşamaqda olan el variantıdır.

Xalqımız Novruzla bağlı silsilə nəğmələr yaratmışdır ki, milli əmək və məişət həyatının bütün görüntüləri onlarda öz əksini tapmışdır. Bayram ritualları, mərasim, oyun və tamaşaları, inanc, tapınma və etiqadları xalqımızın erkən dövrlərdə yaratdığı arxaik mədəni dəyərlərindən soraq verir, insanları birliyə, dostluq və həmrəyliyə, yüksək əxlaqi idealları qoruyub saxlamağa, onları genişləndirməyə sövq edir.

1992-ci ildə xalqımızın adət-ənənələrini əks etdirən "Novruz bayramı" milli dəyərlərimizin yaddaşlara qaytarılmasının yeni mərhələsi başladı. Cəmiyyətimiz dədə-babadan bizə miras qalmış Novruz əxlaqi dəyərlərini bu gün də yaşadıb davam və inkişaf etdirməkdədir. Azərbaycan xalqı öz müstəqilliyini yenidən bərpa etdikdən sonra - 1993-cü ildə Novruz bayramı Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə ümumxalq bayramı elan edilmiş, onun üzərindən bütün qadağalar birdəfəlik götürülmüş, xalq Novruzu hər yerdə özünün böyük milli bayramı kimi kütləvi şənliklərlə qeyd etməyə başlamış, Novruz beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilərək dünyaya sürətlə yayılmağa başlamışdır.

Novruzda insanların bolluğa, firavan, əmin-amanlığa, həyata coşqun çağırış isteyi dayandığı kimi, torpağı əkib-becərməyə, onu dirçəltməyə sonsuz məhəbbət də əks edilir. Novruz bayramı inanclarında insanlara qayğı, diqqət, ədalətlilik başlıca yer tutur. Cəmiyyətdə bərabər, rahat yaşam tərzi formalaşdırmağa, xəstələrə, qocalara, kimsəsizlərə əl tutmağa çağırış ifadə olunur. Bu məqsədlə də bayram günlərində min bir nemətlə zəngin xonçalar bəzədilir, xəstələrə, qocalara, kimsəsizlərə, el ağsaqqallarına bu bayram xonçalarında müxtəlif bayram payı, bayram şirniyyatı və başqa Novruz nemətləri göndərilir, ehtiyacı olanlara bayram yardımları aparılır və beləliklə, bütün el-oba tam şəkildə bayram şənliklərinə qatılır. Novruz günlərində cəmiyyətdə bir növ maddi tarazlıq yaranırdı.

Ulu Öndərin dediyi kimi, biz Novruz bayramını Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçiririk və əbədi olaraq keçirəcəyik.

# "Nar" 15 illik yubileyini abunəçiləri ilə birgə qeyd edir!

***Artıq 15 ildir ki, Azərbaycanın ən gənc mobil operatoru "Nar" abunəçilərinə üstün xidmətlər təqdim edir. Bu illər ərzində "Nar" müştəri yönümlü siyasət yürüdərək abunəçilərin istək və tələblərinə uyğun bir çox unikal məhsul hazırlamış, ölkə boyunca yüksəkkeyfiyyətli 4G şəbəkəsini istifadəyə vermiş, üstün müştəri xidmətləri təqdim etmiş, eləcə də mühüm sosial əhəmiyyətli layihələrin həyata keçirilməsində fəal iştirak etmişdir.***

Müştəri Loyallığına görə rabitə bazarının lideri olan mobil operator, yubiley mesajının mərkəzində də məhz "Nar" abunəçisinə yer verib. 15 illiyi münasibətilə "Nar" "Hekayəmizin qəhrəmanı sənsən" devizi ilə TV kanallarda təbrik videoçarxı yayımlayır və eləcə də "Nar"ı seçən abunəçiləri üçün dəyərli hədiyyələrlə dolu yarışlara start verir.

Mobil operator daha rahat ünsiyyət üçün "Nar"ı seçən bütün abunəçilərinə təşəkkür edir və bayram hədiyyələrini qazanmaq üçün "Nar"ın rəsmi sosial media səhifələrini(Facebook", "İnstagram" və "Twitter") izləyərək yarışlarda fəal iştirak etməyə çağırır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib.



# Novruz milli bağlılığımızı parlaq nümayiş etdirir

***Azərbaycan xalqı əsrlər boyu zəngin ənənə və dəyərlərini yaşadaraq yad təzahürlərdən hifz etmişdir. Əsrlərin sərt sınaqlarından üzüağ çıxan xalqımız tarixinin ən keşməkeşli, çətin anlarında belə, mənəviyyatın təntənəsinə xidmət edən bu dəyərlərdən dönməyib, onları daim uca tutub. Minilliklər içərisindən keçib gələn bu qədim el bayramı tarix boyu qadağalara və təqiblərə məruz qalsa da, öz gözəlliyini indi də saxlayır.***



Mehdi Balabəəyov,YAP Şabran rayon təşkilatının sədri

Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm hissəsini özündə ehtiva edən unikal mədəniyyət hadisəsidir. Bu kişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti də bu baxımdan mühüm əhəmiyyət kəsb edərək çağdaş dövrün reallıqları ilə şərtlənir. Prezident İlham Əliyev bayrama tarixi inkişaf yönümündən baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğu aydın görünür. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, Türkiyədə və Orta Asiya türk dövlətlərində Novruz mart ayında bayram kimi qeyd olunur. Novruzun milli taleyimizdəki yerini, müstəqillik əldə etmiş gənc Azərbaycan Respublikasının dövlət quruculuğundakı məqamını, bir xalq, millət və dövlət kimi milli dirçəlişimizdəki rolunu məhz etnik özünütəşkil mexanizmi kimi dəyərləndirən ulu öndər Heydər Əliyev bu bayramı milli ideologiyamızın ana sütunu kimi əbədiləşdirmişdir. Ümummilli lider Heydər Əliyev Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qymətləndirmişdir.

Novruz bayramı sovetlər birliyi dövründə rəsmən yasaq edilsə də, ümummilli lider Heydər Əliyevin milli ənənə və dəyərlərə daxilən möhkəm bağlılığı bu bayramın xalq arasında sevilərək yaşadılmasını təmin etmiş, folklorşünaslıq və fəlsəfə sahəsində aparılan elmi tədqiqatlarda onun ideoloji-siyasi əhəmiyyəti dolayı şəkildə önə çəkilmişdir. Ötən əsrin 70-ci illərində isə Novruz bayramı ilk dəfə olaraq məhz ulu öndərin xeyir-duası ilə rəsmən qeyd olunmuş, televiziya ilə yayımlanmışdır. Ümumxalq bayramının yüksək səviyyədə keçirilməsi Azərbaycan xalqının milli ruhunu yüksəldir, milli irsə, tarixə böyük məhəbbət yaradır, özünüdərki gücləndirirdi. Novruz adət-ənənələri o dövrdə çəkilmiş filmlərdə də özünə yer tapırdı.

Hər bir məsələdə ulu öndərin ideyalarına tapınan Azərbaycan Prezidenti İlham Əliyevin milli mədəniyyətin, mənəvi dəyərlərin qorunması, inkişaf vin xalqımıza Novruz təbrikində bu mövqe bir daha aydın görünməkdədir. Bu bayramı müqəddəs milli irs hesab edən dövlət başçısı demişdir: "Novruz bayramı xalqımızın ən sevimli bayramlarındandır. Azərbaycan torpağında həmişə əziz tutulan bu bayramın verdiyi tükənməz mənəvi güc sayəsində biz yüz illərdən bəri keçmişimizin çətin və mürəkkəb dövrlərində nikbinliymizi qoruyub saxlamış, gələcəyə daim ümidlə baxmışıq. Novruz ənənələrinin layiqincə yaşadılması Azərbaycan xalqının çoxəsrlik tariximiz qarşısında müstəsna xidmətidir. Ən ali bəşəri keyfiyyətləri özündə toplayan böyük mənəviyyat və hikmət xəzinəsi olaraq yaz bayramı tarixi-mədəni irsə bağlılığımızı parlaq nümayiş etdirir".

Azərbaycanın təşəbbüsü ilə BMT-nin 2010-cu il 23 fevral tarixdə martın 21-ni Beynəlxalq Novruz Günü elan etməsi də bu bayramın bəşəri miqyasda roluna yüksək önəm verdiyinə dəlalət edir. Xalqımızın milli bayramı Novruzun BMT Baş Məclisi tərəfindən beynəlxalq gün kimi tanınması məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən müvafiq qətnamə layihəsi hazırlanmış, digər dövlətlərlə razılaşdırılması və BMT-də qəbulunun təmin edilməsi üçün ölkəmizin BMT yanında daimi nümayəndəliyinə təqdim edilmişdir.

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə bu fikirlərini vurğulamışdır: "Novruz Azərbaycan xalqının ən sevimli bayramlarından biridir. Xalqımız əsrlər boyu bu gözəl bayramı qeyd edir. Hər bir ailədə Novruz əziz bayram kimi qeyd edilir. Bütün ölkəmizdə hər bir Azərbaycan vətəndaşı baharın gəlişinə sevinir, hər bir Azərbaycan ailəsi bu bayram günlərində bir yerdə olur".

# Ölüm haqdır

## Felyeton



***Bizdə belədir ki, bir nəfər ölən kimi bir-birimizə xəbər verib yığışıb gedirik baş sağlığı verməyə. Lap yaxşı. "Sevinc paylaşdıqca çoxalar, kədər paylaşdıqca azalar" deyiblər. Baş sağlığı da ki, verdin, ta dur get işinin-gücünün dalınca kimi deyil bizdə. Saatlarla otururuq, ta ev yiyəsini təngə gətirmədən durub getmirik. Mətləbdən uzaqlaşıram, bilirəm, amma onu da deməsəm olmaz ki, hələ aramızda elələri də var ki, yasa ancaq yemək saatında gedir. Nə isə...***

Keçək mətləbə. Sözümün canı odur ki, getdiyimiz yasda ev sahibinə baş sağlığımız yalnız bu sözlərdən ibarət olur: "Ölüm haqdır, nə etmək olar ki". Bu ölən haqlı yerə ölüb, haqsız yerə ölüb, durduğu yerdə ölüb, ya bəzi həkimlərin səhiyyə elmini "mükəmməl" mənimsəməsindən ölüb, bir sərxoş sürücü yazığı yol ilə getdiyi yerdəcə vurub öldürüb, qoz çırpanda ağacdan düşüb ölüb, damın qarını təmizləyəndə oradan yıxılıb ölüb, hamamda qaz boğub öldürüb, sayğacın başına oyun açanda elektrik qurudub öldürüb, qiymətlərin bahalığından infarkt keçirib ölüb, köhnə qida yeyib zəhərlənib ölüb, xəstə olub, əcəli çatıb ölüb, hər nəysə, ölənin hamısına "Nə etməli, ay bacı, ay qardaş, ölüm haqdır" təsəllisini verib işimizi tamam hesab etmiş oluruq.Bu əcəlsiz ölümlərin sayını azaltmaq üçün insanları ha maarifləndir, ha maarifləndir, xeyiri yoxdur. Ha de ki, əcəlini özün gətirmə, ay adam. İmkan ver, alın yazının vaxtı gəlib çatsın. Sənə kim deyir ki, bir yerin ağrıdımı, həkimə gedəsən? Pulun var, bir yaxşı həkim tap, yoxdur, otur yerində türkəçarədən, zaddan, bir şey elə, ümidini də ki, Allahdan kəsmə.

Sənə kim deyir ki, qazla işləyən istilik çihazını apar qoy hamam otağına, o da səni boğub öldürsün. Axı ötən il, keçən həftə, srağa gün bu dərddən ölənlərə "Əşi, bunun ağlı-zadı heç yoxmuş",- deyən sən idin. Ay qardaş, ay bacı evinizdə yer yoxdur, yoxsa şüurunuz yoxdur?Sənə kim deyir ki, sayğaca müdaxilə edəsən, ölüb oradaca qalasan? Canın çıxsın oğurluq eləmə, ölmə.Sənə kim deyir ki, çıxıb ağacdan qoz çırpasan, qonşunda bu bəlanın qurbanlarının qəbrini axı elə özün qazmısan.Sənə kim deyir ki, qışın qarında-boranında çıxıb damın qarını təmizləyəsən. Durub da orada, yaz gələndə əriyib gedəcək.

Sənə kim deyir ki, get dükana, bazara, qiymətləri dünən, sırağagünkü kimi görməyib infarkt keçirəsən, ay qardaş, bu, belədir də, hər gün qiymətdir ki, qalxır, təzə xəbərdir niyə bu? Palaza bürün, elnən sürün də. Bunu biz necə qəbul ediriksə, sən də qəbul elə, çox yemə, az ye, ölmə də.

Sənə kim deyir ki, get vaxtı keçmiş qida al, ye. O gözü Allah nə üçün verib sənə? Bir bax, gör nə alırsan da. Onsuz da insaf ərşə qalxıb.Sənə kim deyir ki, düş yolun ortasına, sərxoşu var, dəliqanlısı var, atasının balası var. Ay adam, bir-iki addım o tərəfdə səki var, onu nə üçün düzəldiblər, sənin hərəkətin üçün ediblər də. Bəs bunu nə vaxt anlayacaqsan? Səki ilə get, maşın da səni vurub öldürməsin də.Elə yolda əcəlini çatdıranlardan söhbət düşmüşkən şəhərimizin yerüstü, yeraltı piyada keçidlərini qoyub yolun ortasına düşənlərdən də söhbət açım bir az.Xüsusilə gənc adamlardır, piyada keçidlərdən niyə qaçaqdılar, bilmirəm. Elə yolun ortasındacadırlar. Maşınlar yanından-yörəsindən sürətlə vıyıldayır, bunlar da maşınların arasından. İndi sabah, Allah eləməsin, birini avtomobil vurub yerə yıxanda yenə yığışıb gedəcəyik evinə, deyəcəyik ki, ölüm haqdır, nə etmək olar. Gəlin heç olmasa bu dəfə başqa söz deyək. Deyək ki:Sənə kim deyir ki, piyada keçidlərini qoyub, düşürsən yolun ortasına. Dəli kimi yolda maşınların arası ilə o yana, bu yana qaçırsan? O keçidlərləri tikənlər səndən ağılsızdılar ki...

Qaldı ki, söz dinləməyənlərə, ölüm haqdır, Allah ölənlərin hamısına rəhmət eləsin!

***Mətanət MƏMMƏDOVA***

# "Təhsil Tələbə Krediti Fondu"nun əhatə dairəsi genişlənməlidir

***"Aztəminatlı təbəqədən olan ailələrin üzvlərinin təhsilə əlçatanlığının təmin edilməsi məqsədi ilə dövlət tərəfindən "Təhsil Tələbə Krediti Fondu"nun yaradılması və bu Fondun vəsaiti hesabına tələbələrə kreditlərin verilməsi mütərəqqi haldır. Daha çox tələbəni əhatə edə bilməsi üçün bu Fondun vəsaitinin artırılması, əyani təhsil alan tələbələrlə yanaşı, qiyabi formada təhsil alan tələbələri də əhatə etməsi daha yaxşı olardı". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.***

Onun sözlərinə görə, təhsilalanların bəzi dərsliklərə əlçatanlığının təmin edilməsi məqsədi ilə dərsliklərin rəqəmsal nüsxələrinin yaradılması və onlayn platformalarda yerləşdirilməsinin təhsilin inkişafında mühüm rol oynayır: "Ölkəmizdə elektron kitab, dərslik, dərs vəsaiti, elektron kitabxana sisteminin genişləndirilməsinə, o cümlədən dağ rayonlarında fasiləsiz internetin təmin olunmasına böyük ehtiyac var. Həmçinin dövlət tərəfindən "Məşğulluq marafonu" çərçivəsində şəhid ailə üzvlərinin, müharibədə xəsarət almış şəxslərin və müharibə iştirakçılarının məşğulluğunun təmin edilməsi yüksək dəyərləndirilməlidir. Məşğulluq probleminin aradan qaldırılması istiqamətində səylərin artırılması məqsədəmüvafiq olar. Bununla yanaşı, sosial müdafiəyə daha çox vəsaitin ayrılması sosial rifahın daha da yüksəldilməsinə gətirib çıxarar".

K.Nurullayeva eyni zamanda "YAŞAT" Fondu tərəfindən qazi və müharibə iştirakçılarına və onların yaxın ailə üzvlərinə müalicə və psixoloji dəstək üçün daha çox vəsaitin ayrılmasını da təklif edib: "Həmçinin gənclər arasında sağlam həyat tərzinin təbliği baxımından, eyni zamanda ölkəmizin beynəlxalq arenada idman yarışlarında daha böyük naliyyətlər əldə etməsi üçün ümumilikdə idmana ayrılan vəsaitin həcminə yenidən baxılmasının zəruriliyinə diqqət çəkib: "Çünki istər idmançıların peşəkar yarışlara hazırlığı və xarici ölkələrə səfərləri, istərsə də yarışlarda iştirakı maliyyə vəsaiti yetərli olmadıqda demək olar ki, mümkünsüz olur."

***Arzu Qurbanzadə***



# "Monax" ləqəbli erməni terrorçu "yeni müharibə" mümkünlüyündən danışdı

## Artur Ayvazyan: "Azərbaycan tərəfi istədiyi qədər irəliləyəcək, üstəlik, təhlükəsizlik ərazisi yaradacaq və bu yolla indiki Ermənistan ərazilərinin içlərinə qədər daxil olacaq"

Azərbaycanın Ermənistana verdiyi beş təklifindən, daha dəqiq desək, irəli sürdüyü şərtlərindən sonra erməni ictimai-siyasi rəyində kəskin çaşqınlıq və ziddiyyətlər yaşanmağa başlayıb. Xüsusilə, Azərbaycan tərəfindən rəsmi olaraq təsdiqlənməyən, ancaq Ermənistanın bir sıra informasiya mərkəzləri, həmçinin Qərbi Zəngəzurdakı inzibati rəhbərlikləri tərəfindən etiraf edilən mövqe dəyişiklikləri, yəni Azərbaycan Silahlı Qüvvələrinin Nerkin Hand kəndi istiqamətində bir kilometrə qədər irəliləməsi ətrafında gəzən söz-söhbətlər isə düşməni ciddi şəkildə təlaşlandırır. Bu iddia ilə bağlı Ermənistandakı fikir ayrılıqları vəziyyəti daha da gərginləşdirməkdədir.





Xatırladaq ki, Ermənistanın müdafiə nazirliyi azərbaycanlıların Qərbi Zəngəzurdakı Nerkin Hand kəndi ərazisində yerləşdiklərini təsdiqləsə də, bunun irəliləyiş olmadığını bildirib. "Biz xəbəri qəti şəkildə təkzib edirik. Azərbaycanın nəzarətində olan sözügedən ərazidə Azərbaycan bölmələrinin bir neçə mövqeləri var ki, kəskin hava şəraiti səbəbindən qışda istifadə etmək mümkün olmur. İndi hava şəraitinin dəyişməsi ilə əlaqədar Azərbaycan hərbçiləri yenidən həmin mövqelərə qayıdırlar. Hər hansı irəliləyişdən söhbət gedə bilməz", müdafiə nazirliyinin məlumatında bildirilir.

### Revanşistin "Azərbaycan Ermənistana bir neçə gün və ya həftə vaxt verəcək" iddiası diqqət çəkir

Bu arada, Birinci və İkinci Qarabağ müharibələrində Azərbaycana qarşı döyüşmüş "Monax" ləqəbli terrorçu Artur Ayvazyan müdafiə nazirliyinin sözügedən məlumatına qarşı çıxış edərək bildirib ki, Ermənistanın siyasi və hərbi rəhbərlikləri artıq Azərbaycanın irəli sürdüyü şərtlərini icra etməyə hazır olduqlarını nümayiş etdirirlər. SİA-nın xəbərinə görə, hakimiyyətin yeni müharibəyə hazır olmadığını "Past" qəzetinə deyən Artur Ayvazyan bildirib ki, Azərbaycan tərəfi istədiyi qədər irəliləyəcək, üstəlik, təhlükəsizlik ərazisi yaradacaq və bu yolla indiki Ermənistan ərazilərinin içlərinə qədər daxil olacaq.

Bu arada kiçik xatırlatma edək ki, Artur Ayvazyan 15 il həbsdə olub və o, 1999-cu ildə Ermənistan parlamentində baş vermiş terror aktında şahidlərdən birini qətlə yetirdiyinə görə həbsə atılmışdı. O, 44 günlük müharibədəki məğlubiyyətdən sonra Nikol Paşinyanı da ölümlə hədələdiyinə görə polis tərəfindən saxlanılaraq bir neçə sutkalıq həbs olunmuşdu. Bu gün həmin terrorçu yenidən gündəmə çıxıb.

Lakin bu arada ehtimallarımızdan nəticə hasil etməklə belə bir nəticəyə də gələ bilərik ki, əgər həqiqətən də Azərbaycan hərbçiləri yeni mövqelərə doğru irəliləyirlərsə, əslində həmin mövqelər Qarabağ münaqişəsi başlayarkən Ermənistan ordusu tərəfindən işğal edilmiş ərazilərdir və söz yox ki, bu ərazilər bilacasitə Azərbaycanın tarixi torpaqlarıdır. Ona görə də indi həmin torpaqları, əraziləri itirməyə başlayan ermənilər süni səs-küylər yaratmaqla, revanşist hissləri ilə vəziyyəti dəyişəcəklərini sanırlar. Amma anlamırlar ki, artıq onların qatarları çoxdan gedib və müharibəyə başlamaq deyil, ümumiyyətlə, bu barədə düşünməyə belə macal tapmadıqları halda Azərbaycan silahlı qüvvələri onların başları üzərində dayanacaq. Bu baxımdan, "mövcud vəziyyətdən ən təsirli çıxış yolu yeni müharibədir", deyən erməni revanşisti görünür, hələ də reallığı anlamağa istəmir, yaxud onun ağlı, düşüncəsi buna yetmir. Gəlin düşmənin fikirlərinə diqqət yetirək: "Ukraynadakı hərbi əməliyyatlar fonunda burada mütləq yeni müharibə başlayacaq ki, bu da bizə Azərbaycan silahlı qüvvələrini torpaqlarımızdan çıxarmağa imkan verəcək. Mövcud vəziyyətdən başqa çıxış yolu görmürəm və müharibənin başlayacağını əminliklə deyə bilərəm. Rusiya tərəfi orada hansı uğuru qeydə alırsa-alsın, Türkiyə-Azərbaycan tandemi burada mütləq ikinci cəbhə açacaq. Rusiya zəifləsə burada nə istəyirlərsə edəcəklər. Rusiya qalib gəlsə, Rusiya tərəfini zəiflətmək üçün sərhədlərimizə hücum edəcəklər".







### "Monax" yaxşı bilir ki, Azərbaycan Ordusu 44 günlük müharibədə onların başlarını necə təkbaşına əzdisə, bu dəfə də eyni hal təkrarlana bilər

Təbii ki, sərsəm və ağılsız proqnozlarla çıxış edən bu axmaq erməni revanşisti hələ də anlamır ki, Azərbaycan həm Türkiyə, həm də Rusiya ilə müttəfiqlik bəyannaməsi imzalayıb və həmin bəyannamələrdə vurğulanan bəndlərdən də xəbərsizdir. Ona görə də sərsəm "ideyaları" ilə özünü "ağıllı", ya da "uzaqgörən" hiss edir. Amma bir həqiqəti etiraf edir ki, Azərbaycanın Ermənistana tərəf irəli sürdüyü şərtləri, təklifləri İrəvan tərəfindən nəzərə alınmazsa onda bu şərtləri güc yolu ilə icra etdirməkdən başqa yolu qalmır. Nə Rusiyanın, nə də digər dairələrin isə Azərbaycanın daxili işlərinə qarışmalarına imkan verilməyəcək. Ona görə də qabaqdangəlmişlik edərək nəticə çıxarır. SİTAT: "Azərbaycan artıq sülh dövrünün başlaması üçün özünün 5 ilkin şərtini dərc edib. "İndi Azərbaycan Ermənistana bir neçə gün və ya həftə vaxt verəcək, heç bir tədbir görülməzsə, Tavuş (Dilican), Vardenis (Basarkeçər) Sünik (Zəngəzur) və "artsax" (Qarabağ, Xankəndi) də daxil olmaqla bütün şərq sərhədi boyunca hücuma keçəcək. Bu məqsədlə Türkiyə-Azərbaycan tandemi çox möhkəm zəmin hazırlayıb.

Göründüyü kimi, bu məsələdə Türkiyə amilini də qəsdən ortaya atan düşmən sadəcə təxribatçılıqla məğul olur və yaxşı bilir ki, Azərbaycan Ordusu 44 günlük müharibədə onların başlarını necə təkbaşına əzdisə, bu dəfə də eyni hal təkrarlana bilər.

### Ermənıastanın müdafiə jazirliyindən kütləvi istafalar - öz xoşları ilə gedirlər

Lakin Ayvazyanın erməni ordusunun bərbad vəziyyətdə olması barədə fikirləri isə daha çox diqqət çəkir. "Müharibə yenidən başlasa Ermənistanın strateji müttəfiqi Rusiya hərbi əməliyyatlarda iştirak etməyəcək. "Artsaxda" baş verənlərə baxın, hamı sükuta qərb olub. Və burada ordumuzun əslində necə bərbad bir vəziyyətdə olmasını da əlavə edək...", deyən "Monax" ləqəbli düşmən etiraf edib ki, hərbi əməliyyatlar başlayarsa Azərbaycan onlara bir neçə saat, ya da maksimum bir neçə gün vaxt verəcək.

Erməni ordusunun bərbad vəziyyətdə olması ilə yanaşı, üç aylıq hərbi təlimlərə göndərilən kişilərin ailələrinin dövlət tərəfindən diqqətə alınmamasına, himayəyə alınmamasına da iradını bildirən Ayvazyan müharibənin baş verəcəyi halda uduzacaqlarını istisna etməyib. Bu arada, onu da xatırladaq ki, ötən gün Ermənistanın müdafiə nazirliyi illginc rəsmi məlumat yayıb. Nazirlikdən bildirilib ki, Ermənistan silahlı qüvvələrində öz xoşları ilə ərizələr yazılmaqla kütləvi istefalar baş alıb-gedir. Bu haqda müdafiə nazirinin müavini Arman Sarkisyan martın 15-də, parlamentin müdafiə və təhlükəsizlik komissiyasının iclasında bildirib.

*Rövşən RƏSULOV*

***P.S.** Sonda isə erməni sosial şəbəkələri və hakimiyyətə yaxın strukturlar tərəfindən yayılan qeyri-rəsmi məlumat da diqqət çəkir. "Qapalı mənbə" kimi təqdim edilən informasiyalarda bildirilir ki, təkcə son sutka ərzində Azərbaycanın Qarabağ regionunu 600 nəfərdən çox insan tərk edib. Son 72 saatda isə 2700 insan Laçın dəhlizi vasitəsi ilə Qarabağdan çıxaraq Ermənistana tərəf üz tutublar.*

ANALİTİK-AKTUAL



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

I YAZI

# Yaradılış bayramının həqiqi mahiyyəti

## *Novruz bayramı tarixdə ilk dəfə olaraq Nərimanov tərəfindən 1921-ci ildə Azərbaycanda rəsmi dövlət bayramı elan edilib*

**Bahar bayramı insanlığın, sülhün, humanizmin, mənəviyyatın- bir sözlə yaradılışın bütün dəyərlərinin ən qədim şah əsəridir**

Yaranışın ən qədim beşiklərindən hesab olunan Odlar Yurdu Azərbaycanda yaşayan xalqlar ta qədimdən dünya mədəniyyəti xəzinəsinə olduqca zəngin töhfələr bəxş ediblər. Ən qədim qaynaqların verdiyi məlumatlara görə, bəşəriyyətin ilk mədəniyyət və incəsənət elementləri- yazı, folklor, musiqi, poeziya, xalq teatrı, xalçaçılıq, sənətkarlıq, elmi-fəlsəfi biliklər, idman yarışları və s. bu torpaqlarda təşəkkül tapıb.

Tarix boyu yaşadığı tarixi torpaqlarda möhtəşəm mədəniyyət yaradan Azərbaycan xalqının dünya mədəniyyətinin bu qədim və zəngin ənənəsinin min illərdən bəri yaşadılmasında çox böyük rolu olub. Çünki, zəmanəmizdə məqsədli şəkildə bu bayramın təhrif edilməsi cəhdləri belə min illər boyu bu bayramı yaşadan xalqların gen yaddaşından onun dəyişməz ənənələrini silə bilməyib.

Son tədqiqatlara görə, yaşı 10 min ilə çatan bu bayramın ən yüksək səviyyədə Azərbaycanda qeyd edilməsi Odlar Yurdunun ta qədimdən yüksək sivilizasiya mərkəzi olduğunu təsdiqlən əsas faktorlardandır.

### Bəşəriyyətin ilk bayramı?

Bahar bayramı haqda məlumatlara qədim Şümer mətnlərində, 10 min ilə yaxın yaşı olan ilk müqəddəs kitabda- Avestada, ilk peyğəmbər Zərdüştün qatlarında, azı 5 min illik tarixə dayanan Dədə Qorqud dastanlarında və digər qədim mənbələrdə rast gəlinir.

Şərqşünas Aida İmanquliyeva Novruz bayramını məzmun baxımından şərti olaraq Mərkəzi Asiya, Ön Asiya və Şərqi Avropa olmaqla 3 qismə bölür. Mərkəzi Asiyaya Qazaxıstan, Sibir, Altay və Şimal-Qərbi Çin türkləri- uyğurlar daxildir. Bu ərazidə əhali kənd-kənd, oba-oba göy çəmənliklərdə, çay kənarında toplaşır, çalır-oynayırlar. Qaranlıq düşdükdən sonra tonqallar qalanır və üzərindən hoppanırlar. Bu günlərdə aşıqlar xalq qarşısında çıxış edir, Novruz mahnıları, dastanlardan parçalar oxuyurlar.

Ön Asiya qisminə şərti olaraq Şərqi Anadolunu, Qafqazı, İranı və Özbəkistanı daxil etmək olar. Bu ərazidə bayramın keçirilməsində daha qədim ənənələr üstünlük təşkil edir.

Şərqi Avropa ərazisinə daxil olan türklər- qaqauzlar, Krım, Bolqariya, keçmiş Yuqoslaviya xalaqları və başqaları Bahar bayramını müxtəlif şənliklər, mahnılarla qarşılayırlar.

Mifoloq-alim Seyfəddin Rzasoy qeyd edir ki, Novruz bayramının tarixi təqribən 5-6 min il əvvələ gedib çıxır: "Alimlərimizin tədqiqatlarına görə, qədim turanlılarda bizim indiki Novruz bayramımızda olduğu kimi, Tura bayramı olub. Bu "tura" "törə"- "yaranma" sözündəndir. Novruz bayramı insanın, təbiətin, kainatın yaranış bayramıdır. Köhnə il ölür, yeni il doğulur: "Novruz bayramı mərasimlərində "Kosam ikicanlıdır" ifadəsi işlədilir. Burada "ikicanlı olmaq" Kosanın ilin obrazı kimi anlaşılmasıdır: mərasimin ortasında Kosa ölür, hamı qışqırışır; Kosanın ölməsi-dirilməsi əslində ilin ölüb-dirilməsi, təbiətin yenidən doğulması deməkdir.

Əslində, bu təsəvvürlərin kökündə zamanın "ölüb-dirilməsi" durur. İlin axır çərşənbəsində zaman qurtarır. Mifoloji təsəvvürlərdə səthi zaman olmayıb. Novruz bayramında ilin olmaması, yəni konkret rəqəmin dəqiq şəkildə göstərilməməsi əslində zamana mifoloji münasibətdir. Aydın olur ki, burada yaşadığımız tarixi zaman yoxdur. Novruz bayramı mifoloji zamanla bağlıdır və burada birinci, ikinci, üçüncü, bir sözlə, illərin sıralanması yoxdur, burada cəmi bir zaman var; o, ilin əvvəlində doğulur, böyüyür, qocalır, axırda da ölür.

Bunun da əsasında mifologiyamızdakı ölüb-dirilmə haqqındakı təsəvvürlər durur. Ölüb-dirilmə Novruz bayramında bütün çalarlarıyla yaşayır. Xüsusilə kənd yerlərində qadınlar evdəki köhnə şeyləri təzələyirlər: yorğan-döşəyi yuyurlar, divarları ağardırlar, köhnə şeyləri atırlar.

Qabaqlar valideynlər balalarına nəsə təzə şey almaq istəyəndə bunu mütləq Novruz bayramına saladılar. Bu, arxetipik şüurla bağlı idi: yəni burada başdan-başa təzələnmə nəzərdə tutulurdu. Bu mənada Novruzun əsas mahiyyəti təzələnmə, yeniləşmə bayramıdır. Novruz bayramının həmin ritualları indi də yaşayır".

Yunan tarixçisi Plutarx yazır: "Midiyalılarda buğda çox müqəddəs hesab edilir. Yazın əvvəllərində midiyalılar buğdanı cücərdirlər. Bu Omani adlanır".

Qərbi hindistanlıların danışdıqları qədim sanskrit dilində Omani Sumani adlanır ki, bu da buğda kəlməsi ilə eyniləşir. Bu kəlmə dilimizdə Səməni adlanaraq Novruzun rəmzinə çevrilib. Yeri gəlmişkən, hər il yazda Hindistanda da Novruza oxşar kütləvi şənliklər keçirilir (Holi Bayramı).

Tədqiqatçıların çoxu Şərqin böyük hissəsində qeyd edilən Bahar Bayramının vətəninin Azərbaycan olduğunu vurğulayırlar. Bu bayramın dünyaya məhz buradan yayıldığı ehtimalı son dərəcə yüksəkdir.

### İlaxır çərşənbə- "Danatma" Günəşi qarşılamaq mərasimi

Novruz gününə Hürmüz günü, yəni, Tanrı günü deyilərdi. Tanrı gününə hazırlaşan insanlar çərşənbələrdə 4 müqəddəs ünsürlə- su, od, hava və torpaqla pak olma mərasimləri keçirər, ruhu ilə bərabər öz vücudunu da təmizləyərdi. Axırıncı, ilaxır çərşənbə gecəsi ən əziz çərşənbə hesab olunur. Bu cərşənbə Danatma adlanir. Həmin gecə hec kim yatmaz, çillə keçirər, Ulu Danı- müqəddəs Günəşi qarşılayardı.

Əski inanca görə, sonuncu çərşənbə gecəsi insanın Tanrıya öz sevgisini göstərmək gecəsidir. Qədimdə həmin gecə insanlar bir yerə yığışar, sözlə-sazla Tanrını mədh edərdilər. Bu dolayısı ilə insanların Uca Tanrıya ehtiramı və yaradılışa görə Ona minnətdarlığıdır.

Azərbaycanda müqəddəs ilaxır çərşənbələri adı ilə keçirilən mərasimlər barədə ən qədim mənbələr məlumat verir. Müasir araşdırmalara görə, Bahar bayramı dünyanın ən qədim bayramı olmaqla köklü dini-fəlsəfi ehkamlara söykənib. Ərəb əsarəti dövründə xalqımızın bir sıra qədim adət-ənənələrinə, dini-fəlsəfi biliklərinə mövhumat donu geyindirib yaddaşlardan silməyə cəhd edildiyi üçün Novruz və onun ilaxır çərşənbələrinin gerçək mahiyyəti folklorşünasların və etnoqrafların diqqətindən kənarda qalmışdı.

Buna baxmayaraq, bu bayram Azərbaycan xalqının gen yaddaşında minillər boyu yaşadı və itirilmədi. Bu gün Novruz mərasimləri qədimdə olduğu kimi ümümxalq bayramı kimi qeyd olunur. Azərbaycan xalqı isə bu bayramı ən əziz və müqəddəs bayram kimi çox yüksək səviyyədə qeyd edirlər.

### Novruz mifoloji və kosmoqonik biliklərə əsaslanır

4 müqəddəs ünsürə həsr olunan çərşənbələrdən sonra Böyük Bayram- Novruz gecəsi olur və gecəylə gündüzün tam bərabərləşdiyi bu gün Yaradana və bütövlükdə yaradılışa həsr olunur.

Novruz bayramının nəyə görə məhz martın 21-də qeyd olunması çox mətləblərə aydınlıq gətirir. Məhz bu gün astronomik təqvim ili başlayır. Bu fakt sübut edir ki xalqımız ta qədim zamanlardan yüksək kosmoqonik və astronomik biliklərə, kainat haqda təsəvvürlərə malik idi. Elm isə yalnız son əsrlərdə sübut edə bilib ki gecə-gündüz bərabərliyi və təbii qüvvələrin tam oyanması məhz həmin gecə baş verir.

Bu haqda qədim biliklər və belə dəqiqlik yalnız heyrət doğura bilər. Dünyanın ən qədim müqəddəs bayramını yaradan, Tanrının və onun əsəri olan Təbiətin şəninə keçirilən mükəmməl mahiyyətə malik mərasimləri çox dərin elmi-fəlsəfi biliklərə söykənir.

Görkəmli tarixçi və filoloq alimlərimiz Mirəli Seyidov, Elməddin Elibəyzadə, Baloğlan Səfizadə və başqaları Novruzun mənşəyini çox-çox qədimlərə bağlayaraq qeyd edirlər ki, bu mərasimlər qədim dini biliklərə və yüksək mədəniyyətə əsaslanır və Tanrıya ibadət rituallari kimi keçirilirdi.

Novruzun mahiyyəti əslində, qondarma tarixçilərin dediyi kimi təkcə təbiətin oyanmasindan ibarət ola bilməz. Çünki, tarixi faktdır ki xalqımız ta qədimdən zəngin dini-fəlsəfi bilklərə və tək Tanrıçılıq təliminə sahib olublar. Ona görə də, xalqın ən böyük və müqəddəs bayramı da məhz bu faktorların əsasında formalaşa bilərdi. Avestanı öyrənəndə bu qənaətə gəlmək asan olur.

Novruz bayramı zərdüştlükdən də qədim tarixə dayansa da, Zərdüştlük (Mazdyasna) dini ilə sıx bağlı olub və bu bağlılıq elmə məlum olan ilk müqəddəs kitab "Avesta"da da əks olub. Bu, həm də təbiətin və insanın yaranma bayramı, işığın-Ahuramazdanın qaranlığa- Əhrimən üzərində qələbə bayramıdır.

### Tanrıya həsr olunmuş ən qədim bayram

Qədim ari sivilizasiyasına mənsub xalqlar Bahar bayramında və onun 4 ünsürə aid edilən çərşənbələrində ocaqlar yandırar, Tanrının ən güclü maddi enerjisi saydıqları Odun vasitəsilə Tanrıya Onun öz nemətlərindən qansız qurbanlar verərlərmiş. (Bu sətirlərin müəllifinin bayramın bu əsas elementi- Odun vasitəsilə Tanrıya qansız qurban mərasimi ilə bağlı qədim mədəniyyətimizin tədqiqatçısı Fikrət Nəsrəddinzadənin ssnearisi əsasında Tovuzda səhnələşdirərək çəkdiyi qısametrajlı etnoqrafik televiziya filminə buradan baxa bilərsinis- h t t p s : / / w w w . y o u t u - be.com/watch?v=H54k30G8WiE)

Bayram mərasimlərində Tanrını vəsf edən mərasim nəğmələri oxunar, məbədlərdə böyük bayram tədbirləri keçirilərmiş. İmkansızlara yardlm edilər, küsülülər barışar, yurdda sülh və əmin-amanlıq hökm sürərmiş.

Fikrimizcə, bu mərasimlər ən qədim inancların, Tanrıya saf qəlbdən tapınmanın əyani nümayişi olaraq, maddi təbiətin 4 ünsürünün insan həyatında oynadığı əvəzedilməz rolun layiqli qiymətləndirilməsinə xidmət edir. Məhz bu səbəbdən 4 çərşənbənin hərəsi təbiətin bir ünsürünə həsr olunarmış.

Su, Od, Torpaq və Yel çərşənbələrində insanlar bu ünsürlərin vasitəsilə ruhi cəhətdən təmizlənərmişlər. Məsələn, Od çərşənbəsində odun üzərindən tullanmaqla, su çərşənbəsində saf su ilə yuyunmaqla, torpaq çərşənbəsində həyətdə lağım qazıb içindən sürünərək keçməklə, yel çərşənbəsində isə açıq havada çox gəzməklə təmizlənərmişlər.

***Ardı var***

***Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
17 mart
2022-ci il

# Ronaldo və Messi Çempionlar Liqasından kənarda qaldılar...



***Kriştiano Ronaldo və Lionel Messi futbol kroyeralarında növbəti anti rekorda imza atıblar. Belə ki, dünyanın hər iki ulduz futbolçusu UEFA Çempionlar Liqasında çıxışlarını erkən başa vurublar.***

Ötən il olduğu kimi, bu mövsümdə də hər iki futbolçunun komandası ÇL-in 1/8 finalında mübarizəni dayandırıblar. Ronaldonun komandası "Mançester Yunayted" "Atletiko"ya, Messinin klubu PSJ isə Madridin digər təmsilçisi "Real"a uduzub.

Ötən il eyni hallar bu iki futbolçu "Yuventus" və "Barselona"da oynayanda da baş vermişdi. Bunadək isə son dəfə 2004/05 mövsümündə Ronaldo və Messinin komandaları 1/4 finala yüksələ bilməmişdilər.

# İnsanın doğulduğu ay barədə müəmma: Kimlər daha çox yaşayır?

***Alimlər insanın doğulduğu ayla onun sağlamlığı və sürəcəyi ömür arasında bioloji qanunauyğunluğu araşdırıb. Bu barədə medicina.az saytı yazıb. Yazıda qeyd olunur ki, bu əlaqənin elmi izahı var. Araşdırmalar göstərib ki, uzun ömürlülər içərisində ən çox pay payızda doğulanlardır, ən az isə yazda. Yazda doğulanların səhhətində də problemlər çox olur.***



Bu onunla izah olunur ki, yay və payız aylarına düşən hamiləlik zamanı ana daha çox vitaminli qidalarla qidalanır, bol günəş enerjisi alıb və əhvalı yaxşı olub. Qış və yaza doğru sürən hamiləlik isə bir çox faydalardan uzaq qaldığı üçün bu uşağın sağlamlığına təsir edir.

Yazda doğulanlarda allergik reaksiyalar da çox olur. Payızda isə bu risk azdır. Payız və yayda doğulanlar zehni baxımdan da öndə gedir. Eləcə də ömrün müddətinə genlər və insanın xarakteri də təsir edir. Optimistlər daha çox yaşayır. Qışda və yazda doğulanlar bir qədər pessimist və depressiv olurlar.

# İntihar edən insanlar niyə "qəhrəman" kimi qələmə verilir?



***"Son günlərdə intihar xəbərləri sürətlə artır. Təəssüf ki, bu xəbərlər elə bir başlıqla yayılır ki, cəmiyyətdə qıcıq yaradır. İntihar xəbərləri psixoloji həssas insanları da buna sövq edə bilir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib. Onun sözlərinə görə, bu cür insanların şüuraltında intihar problemlərdən çıxış yolu və ya ətrafdakı insanlardan alınan bir intiqamdır: "Bu səbəbdən intihar xəbərləri insanları bu addımı atmağa yönləndirə bilir".***

Psixoloq sözlərinə davam edərək belə qeyd edib: "Digər bir səbəb isə intihar edən insanların "qəhrəman" kimi qələmə verilməsidir. Bu, özünü cəmiyyətdə təsdiq etməyə ehtiyacı olan, lakin bunu bacarmayan, hər kəs tərəfindən təriflənmək istəyən insanları cəsarətləndirir. Onlar intiharla cəmiyyətdə seçilən insan ola biləcəklərini düşünürlər. Bütün bunları nəzərə alaraq, intihar xəbərlərinin belə bir şəkildə gündəm olması cəmiyyətə daha çox mənfi təsir göstərdiyini deyə bilərik".

***Ləman Əlizadə***

# Bank hesabından pulu oğurlayan şəxs tutuldu!

***Nəsimi RPİ-nin 21-ci Polis Bölməsinə martın 5-də Şəki rayon sakini S.İsmayıllının bank hesabından 483 manat pulunun oğurlanması barədə müraciət daxil olub. Bu barədə DİN Mətbuat Xidmətindən SİA-ya məlumat verilib.***

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Şəki rayon sakini, əvvəllər məhkum olunmuş N.Cəbrayılzadə müəyyən edilərək saxlanılıb. Araşdırma aparılır.



# Neft yenə bahalaşıb

***Əvvəlki iki ticarət sessiya ərzində orta hesabla 12% ucuzlaşmış neftin qiyməti korreksiya çərçivəsində artıb. SİA xəbər verir ki, "Brent" markalı neftin bir barelinin qiyməti yenidən 100 ABŞ dollarını ötüb.***

Belə ki, Şimal dənizində hasil olunan "Brent" neftinin may fyuçersləri 1,42% bahalaşaraq, 1 bareli 101,33 ABŞ dollarına satılıb. WTI neftinin aprel fyuçerslərinin qiyməti isə 2,12% artaraq, 1 bareli 98,48 ABŞ dolları təşkil edib.



Koronavirusa yeni yoluxma hallarının artması həftənin əvvəlindən etibarən neftin kəskin ucuzlaşmasına səbəb olub. Belə ki, yeni yoluxma halları haqqında xəbərlərin yayılmasından sonra Çinin bir neçə şəhərində koronavirus məhdudiyyətləri sərtləşdirilib. Məhdudiyyətlər, o cümlədən nəqliyyatın hərəkətinin azalması benzin və digər neft məhsullarına olan tələbin aşağı düşməsinə səbəb olub. Digər tərəfdən, Amerika Neft İnstitutunun (API) məlumatlarına görə, martın 11-dək olan həftə ərzində ABŞ-da neftin kommersiya ehtiyatları 3,754 milyon barel artıb. İnvestorlar isə bu baxımdan azalmanın qeydə alınacağını gözləyirdilər.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220